Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Azərbaycanın görkəmli şəxsiyyətləri*

# XAN ŞUŞİNSKİ
## (İsfəndiyar Aslan oğlu Cavanşirov)

***Biblioqrafiya***

**Bakı – 2021**


**Tərtib edən:** **Həliməxatun Manafova**

**Elmi redaktor** **Kərim Tahirov,**
*Professor,*
*Əməkdar mədəniyyət işçisi*

**"Ön söz"ün müəllifi:** **Sərdar Fərəcov**
*Xalq artisti, bəstəkar*

**Redaktor:** **Elnur Nəciyev**



**Xan Şuşinski** (İsfəndiyar Aslan oğlu Cavanşirov)**:** biblioqrafiya / Tərt. ed. H.Manafova; elmi red. K.Tahirov; red. E.Nəciyev. – Bakı, 2021.– 188 s.


Azərbaycan Milli Kitabxanasının *"Azərbaycanın görkəmli şəxsiyyətləri"* seriyasından hazırladığı növbəti biblioqrafiya görkəmli xanəndə, Qarabağ muğam məktəbinin ustad sənətkarı, Azərbaycanın Xalq artisti Xan Şuşinskinin anadan olmasının 120 illiyinə həsr edilmişdir. Göstəricidə xanəndənin səs yazıları, məqalələri, həyat və yaradıcılığı və ictimai-siyasi fəaliyyəti haqqında kitablar, arxiv sənədləri, habelə onun dünyanın ən zəngin kitabxanalarında mühafizə olunan nəşrləri öz əksini tapmışdır.

Kitab sənətşünaslar, musiqi tədqiqatçıları, musiqi məktəblərinin müəllim, tələbə və şagirdləri, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.


ISBN 978 9952 542 81 3



**© Azərbaycan Milli Kitabxanası, 2021**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Azərbaycan Milli Kitabxanası

*Выдающиеся личности Азербайджана*

# ХАН ШУШИНСКИЙ
## (Исфендияр Аслан оглу Джаванширов)

***Библиография***

**Баку – 2021**

**Составитель:** **Халимахатун Манафова**

**Научный редактор:** **Керим Тахиров,**
*профессор,*
*Заслуженный работник культуры*

**Автор «Предисловия»:** **Сардар Фараджов**
*Народный артист, композитор*

**Редактор:** **Эльнур Наджиев**

**Хан Шушинский** (Исфендияр Аслан оглу Джаванширов): библиография / сост.: Х.Манафова; науч. ред. К.Тахиров; ред. Э.Наджиев.– Баку, 2021.– 188s.

Очередной библиографический указатель из серии «Выдающиеся деятели Азербайджана» издан Азербайджанской Национальной Библиотекой и посвящен 120-летию со дня рождения выдающегося певца-ханенде, мастера Карабахской школы мугама, народного артиста Азербайджана Хана Шушинского. В библиографии отражены аудиозаписи, статьи, книги о жизни, творчестве и об общественно-политической деятельности певца-ханенде, архивные документы, а также издания его произведений, хранящихся в крупнейших мировых библиотеках.

Библиографический указатель предназначен для искусствоведов, музыковедов, учителей, студентов и учащихся музыкальных школ, библиотекарей-библиографов и широкой публики читателей.

**© Национальная Библиотека Азербайджана, 2021**

## Xan Şuşinskinin 100 illik yubileyinin keçirilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2000-ci ildə Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi məşhur xanəndə Xalq artisti İsfəndiyar Aslan oğlu Cavanşirovun (Xan Şuşinskinin) anadan olmasının 100 ili tamam olur.

Azərbaycan klassik xanəndəlik ənənələrinin layiqli davamçılarından biri olan Xan Şuşinski müstəsna fitri istedadı, geniş diapazonlu gur və məlahətli səsi yüksək ifaçılıq mədəniyyəti sayəsində Azərbaycan muğam sənətini zənginləşdirmiş, bir neçə muğama yeni xallar, guşə və şöbələr əlavə etmişdir. Onun ifasında səslənmiş muğam və xalq mahnıları əsl sənət inciləri kimi milli musiqi mədəniyyəti xəzinəmizə həmişəlik daxil olmuşdur. Öz 60 illik yaradıcılığı ilə Azərbaycan xanəndəlik sənəti tarixində özünəməxsus məktəb yaratmış Xan Şuşinski ölkəmizdə istedadlı ifaçılar nəslinin yetişdirilməsinə də böyük əmək sərf etmişdir.

XX əsrdə Azərbaycan milli musiqi sənətinin inkişafında mühüm rol oynamış Xan Şuşinskinin 100 illik yubileyinin ölkəmizdə layiqincə keçirilməsini təmin etmək məqsədilə qərara alıram:





1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə, Təhsil Nazirliyinə və Azərbaycan Milli Elmlər Akademiyasına tapşırılsın ki, Xan Şuşinskinin anadan olmasının 100 illiyinə həsr olunmuş yubiley tədbirləri hazırlayıb həyata keçirsinlər.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Heydər Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 20 iyul 2001-ci il*
*№ 774*

## Göstərici haqqında

2021-ci ildə Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, məşhur xanəndə, Xalq artisti İsfəndiyar Aslan oğlu Cavanşirovun (Xan Şuşinskinin) anadan olmasının 120 ili tamam olur.

Yubileylə əlaqədar M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası *"Azərbaycanın görkəmli şəxsiyyətləri"* seriyasından *"Xan Şuşinski"* biblioqrafiyasını tərtib etmişdir.

Biblioqrafiya XX əsr Azərbaycan musiqi tarixində görkəmli yer tutan Xan Şuşinski haqqında tərtib edilmiş ilk biblioqrafik vəsaitdir.

Oxuculara təqdim edilən bu göstəricidə "Xan Şuşinskinin həyat və yaradıcılığının əsas tarixləri", "Xan Şuşinski Azərbaycan musiqisi və görkəmli sənətkarlar haqqında", "Görkəmli şəxsiyyətlərin Xan Şuşinski haqqında dəyərli fikirləri", "Xan Şuşinskiyə həsr olunmuş şeirlər" bölmələri, sənətkarın bəstələdiyi musiqi əsərləri, səs yazıları, həyat və yaradıcılığı haqqında kitablar, dissertasiya və avtoreferatlar, dövri mətbuatda, məcmuələrdə Azərbaycan, rus və digər dillərində çap olunan məqalələr toplanmışdır. Toplanılan materiallar 1931-2021-ci illəri əhatə edir.

Biblioqrafiyada Xan Şuşinski haqqında hazırlanmış müxtəlif radioverilişlər, əlamətdar günlərlə əlaqədar xanəndəyə ünvanlanmış məktublar, konsert proqramlarının afişaları və s. "Əlavələr" bölməsində öz əksini tapmışdır.

Vəsaitdə materiallar bölmələr üzrə xronoloji qaydada qruplaşdırılmış, daxildə isə əlifba sırası gözlənilmişdir.

Biblioqrafik vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə Xan Şuşinskinin əsərlərinin və haqqında yazan müəlliflərin əlifba göstəriciləri də tərtib olunmuşdur.





Göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirərək, təklif və rəylərini M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına göndərmələrini xahiş edirik.

**Ünvan:** AZ-1000, Bakı şəh., Xaqani küç. 57.
**E-mail:** contact@anl.az
**URL:** www.anl.az

## Об указателе

В 2021 году исполняется 120 лет со дня рождения выдающегося представителя азербайджанской музыкальной культуры, знаменитого певца-ханенде, народного артиста Исфендияра Аслан оглу Джаваншира (Хана Шушинского).

В связи с юбилеем Азербайджанской Национальной Библиотекой им. М.Ф.Ахундова в серии «Выдающиеся личности Азербайджана» была подготовлена библиография «Хан Шушинский».

Указатель является первым библиографическим пособием об одном из самых выдающихся представителей азербайджанской музыкальной культуры XX века Хане Шушинском.

В указателе представлены разделы: «Основные даты жизни и творчества Хана Шушинского», «Хан Шушинский об азербайджанской музыке и выдающихся мастерах искусства», «Выдающиеся личности о Хане Шушинском», «Стихи, посвященные Хану Шушинскому», музыкальные произведения ханенде, звукозаписи его выступлений, книги о его жизни и творчестве, диссертации и авторефераты, статьи на азербайджанском, русском и других языках, опубликованные в разное время в периодической печати и сборниках. Собранные материалы охватывают период с 1931 по 2021 год.

В разделе «Дополнения» отражены различные радиопередачи, посвященные Хану Шушинскому, письма, адресованные ему в связи со знаменательными и памятными датами, афиши концертных программ и проч.

Материалы в библиографическом указателе представлены в хронологическом порядке, внутри же разделов соблюдается алфавитный порядок.





Для облегчения работы с библиографией в конце ее приводится алфавитный указатель произведений Хана Шушинского и авторов, писавших о нем.

Заранее благодарим читателей за примечания и предложения об указателе и просим направлять их в Азербайджанскую Национальную Библиотеку им.М.Ф.Ахундова

**Адрес:** AZ-1000, Баку, ул.Хагани, 57
**E-mail:** contact@anl.az
**URL:** www.anl.az

## Xan Şuşinski haqqında düşüncələr

Bu gün Azərbaycan muğamlarının gözəlliyi, möhtəşəmliyi, rəngarəngliyi haqda söz açdıqda, əlbəttə muğamlarımızın görkəmli ifaçıları da yada düşür. Bu ifaçılar arasında elə xanəndələr olmuşdur ki, onların oxuduqları hər hansı bir muğam artıq onların adları ilə qoşa çəkilirmiş. Yada salaq: "Zabul Qasım", "Segah İslam", və ya Şəkili Ələsgərin "Rəhabı", Məşədi Məmməd Fərzəliyevin "Şüştəri", Seyid Şuşinskinin "Çahargahı"... (və daha neçə-neçə muğam ifaçıları öz adlarını muğamlarda əbədiləşdirmişdir). Lakin elə xanəndələrimiz də olmuşdur ki, onların ifasında bir yox, iki yox, bəlkə də bütün muğamlar və bu muğamların şöbələri, guşələri, ən xırda detalları belə xüsusi ilhamla, məharətlə, ustalıqla, zərgər dəqiqliyi ilə səslənmiş, dinləyicilərin ürəklərini fəth etmişdir. Belə xanəndələrdən biri də Azərbaycanın xalq artisti Xan Şuşinski idi. O, hələ sağlığında xalqın ən sevimli sənətkarı olmuş, adı əfsanələşmiş, dillərə düşmüş, muğam kimi qədim və qiymətsiz bir sənət dünyasının simvoluna çevrilmişdir.

Xan Şuşinski (İsfəndiyar Aslan ağa oğlu Cavanşir) 1901-ci il avqustun 20-də Azərbaycanın musiqi beşiyi Şuşa şəhərində doğulmuşdur. Qarabağ xanlığının mərkəzi olan Şuşada müxtəlif sənət növləri inkişaf etdiyi kimi ədəbiyyat, incəsənət, xüsusilə xalq musiqisi, muğam sənəti də vüsətlə inkişaf edirdi. Şuşanın xanəndələri, tarzənləri, kamança ifaçıları bütün Azərbaycanda məşhur idilər. Bu şəhərdə keçən musiqi məclislərinin xalqa bəxş etdiyi zövqi-səfa dillər əzbəri olmuşdur. Belə bir şəhərdə, belə bir mühitdə doğulan İsfəndiyarın qəlbi kiçik yaşlarından ecazkar muğam sədaları ilə döyünmüş, xalq musiqisinə sonsuz sevgi ilə dolmuşdur. Xoşbəxtlikdən uca tanrı ona böyük musiqi duyumu ilə bərabər, gözəl, ilahi səs də bəxş etmişdi. Uşaqlıqdan evlərində olan





qrammafonda böyük muğam ustadları – Cabbar Qaryağdıoğlunun, Seyid Şuşinskinin, Əbülhəsən xan İqbalın ifasında eşitdiyi muğamlar, təsniflər onu məftun edir, əsrarəngiz bir dünyaya çağırırdı. Onun xanəndəlik istedadının səsi-sorağı tezliklə bütün Şuşaya yayılır. Dövrünün məşhur muğam ustası "Segah İslam" kimi tanınan xanəndə İslam Abdullayev onun müəllimi olur.

1918-ci ildə Qarabağın Novruzlu kəndində keçən bir musiqi məclisində iştirak edənlər qrammafonda Əbülhəsən xan İqbalın "Kürdü Şahnaz" muğamını dinləyib, alqışlayırlar. Məclisdə iştirak edən "Segah İslam" üzünü tələbəsi İsfəndiyara tutub: - Bəlkə, sən də bizim üçün bir "Kürdi Şahnaz" oxuyasan... – deyir. Bütün məclis həyəcana gəlir, 17 yaşlı İsfəndiyar təmkinlə qavalı əlinə alır və onun səsiylə "Kürdü-Şahnaz" pərdə-pərdə göyə pərvazlanır. Hər bir xanəndədən güclü səs, çılğın zəngulələr, zil pərdələrdə gəzişmələr tələb edən "Şahnaz" muğamı gənc xanəndəyə "xam atı ram edən mahir minici" hünəri ilə ram olur. Muğam bitdikdə məclis əhli gənc xanəndəni alqışlayır və hamı anlayır ki, bu gün yeni bir azman muğam ifaçısının sənət meydanına əzmlə daxil olmasına şahid oldular. Fərəhini, şadlığını gizlətməyən İslam Abdullayev – İsfəndiyar bu gündən muğam aləmində sənin öz adın olacaq, bu gündən sən – Xan Şuşinskisən! – deyir və bütün məclis yeni doğulan sənət ulduzunu alqışlayır.

Tezliklə gənc xanəndənin şöhrəti bütün Azərbaycana yayılır. 1923-cü ildə ilk dəfə Bakıda, Filarmoniyada keçən (o zaman Müdafiə Evi adlanırdı) konsertdə dövrünün məşhur xanəndələri – Cabbar Qaryağdıoğlu, Şəkili Ələsgər, Keçəcioğlu Məhəmməd, Seyid Şuşinski ilə bir səhnədə çıxış edir. Artıq respublika mətbuatında Xan Şuşinski haqqında, onun gözəl ifası haqqında yazılar dərc olunur.

XX əsrin 20-ci illərin Azərbaycan muğamı üçün bir sınaq illəri idi. Bir tərəfdən Şərqdə ilk Konservatoriyanın açılmasına nail olan (1921) dahi bəstəkarımız Üzeyir bəy Hacıbəyli milli

musiqi alətlərimizin, xanəndəlik sənətinin yeni üsulda tədrisinə çalışır, digər tərəfdən ifrat bolşeviklər, milli dəyərlərimizi heçə sayan absurd düşüncə sahibləri, "daloy tar", "daloy muğam" deyərək milli mədəniyyətimizi kökündən baltalamaq istəyirdilər. Belə zamanda muğam ifaçılarının böyük hünəri, onların xalq arasında nüfuzu, məhəbbəti, dəstəyi bir-sıra hərcayi əməllərin qarşısına sipər çəkdi. Bu illərdə məşhur "Muğam proqramı"nı yaradan Üzeyir Hacıbəyli bütün muğam bilicilərinin sağlam fikirlərini ümumiləşdirərək Azərbaycan muğamının yeni inkişaf perspektivlərini təmin etdi. Üzeyir bəy Azərbaycan muğamının digər Şərq xalqlarında yer almış muğamlardan fərqini, düzgünlüyünü, inkişaf vüsətini, dolğunluğunu elmi əsaslarla göstərərkən, istedadlı ifaçılarımız muğamlarımızın möhtəşəmliyini, bənzərsizliyini öz ifalarıyla sərgiləyiblər. Gənc Xan Şuşinski də Azərbaycan muğamlarının saflığını, mənasını, məzmununu, ucalığını qoruyan əsl sənət mücahidi idi. Bir tərəfdən xalq musiqisinə, muğamlarımıza qarşı mürtəce mövqe tutan bolşeviklər, digər tərəfdən xalqa yaxın olduqlarını sübut etmək üçün xalqın sevimlisi olan Xan Şuşinskini öz təbliğat-təşviqat konsertlərinə cəlb edib, xalqın rəğbətini qazanmaq istəyirdilər.

Dahi bəstəkarımız Üzeyir bəy Haqcıbəyli Xan Şuşinskinin sənətini yüksək qiymətləndiridi. Çünki Xan Şuşinski nə ifa edirdisə, öz ifasına heç zaman yad boğaz, yad zəngulə, yad intonasiyalar əlavə etmirdi. Onun ifası Azərbaycan muğamının təmizliyinin, saflığının, əzəmətinin rəmzi idi. Təsadüfi deyildir ki, Üzeyir bəy bəstələdiyi "Qaragöz" mahnısının ilk ifasını məhz Xan Şuşinskiyə həvalə etmişdi.

1956-cı ildə bəstəkarın "O olmasın, bu olsun" operettası əsasında çəkilən eyniadlı filmdə, nişan məclisində Xan Şuşinskinin oxuduğu "Şahnaz" muğamının yer alması taleyin qisməti olmaqla bərabər, qaçılmaz zərurətin təsdiqidir. Xan Şuşinski xoşbəxt sənətkar taleyi yaşamışdır. Onun şöhrət coğrafiyası genişləndikcə sənətinin də dəyəri, qiyməti artırdı. Şuşada, Bakıda, Tiflisdə,





Tehranda, Təbrizdə, Moskvada də s. şəhərlərdə oxuyur-oxusun onun sənətini, ifasını sevənlər, alqışlayanlar tükənməz olub.

Azərbaycanın unudulmaz şairi Səməd Vurğun məşhur "Azərbaycan" şeirində doğma vətəninin tərənnümünə gözəl misralar həsr edərkən Xan Şuşinski də bu ölməz şeirində yada salır:

*Könlüm keçir Qarabağdan,*
*Gah o dağdan, gah bu dağdan*
*Axşamüstü qoy uzaqdan*
*Havalansın Xanın səsi*
*Qarabağın şikəstəsi.*

Bu ğün bu misralar "Qarabağ şikəstəsi"nin mətninə əlavə olaraq bütün xanəndələr tərəfindən oxunur və heç bir xanəndəyə qismət olmayan şöhrət Xanın adıyla "Qarabağ şikəstəsi"ndə möhürlənir.

Xan Şuşinskinin insani keyfiyyətləri, dostluqda möhkəmliyi, gənclərə qayğısı, sadəliyi, duzlu zarafatları, şəxsiyyəti haqqında söz-söhbətlər bu gün də əfsanə kimi xatirələrdə yaşayır.

2010-cu ildən Azərbaycan Televiziyası, "Mədəniyyət" kanalında "Musiqi xəzinəsi verilişinin biri Xan Şuşinskiyə həsr olunmuşdu. Verilişə qonaq kimi dəvət olunan xalq artisti Əlibaba Məmmədovun bəzi xatirələri heç yadımdan çıxmayır. Əlibaba müəllim demişdi: – "Xanəndələrimiz arasında Xan Şuşinskiyə bənzəyən ikinci adam görməmişəm. Heç vaxt, heç kimin haqqında güldən ağır söz deməyib, əksinə, hamıya yaxşı sözlər deyib ruhlandırardı...

Yaxşı nərd oynayardı. Bir dəfə başqa respublikaya qastrola getmişdik, mehmanxanada bir otaqda qalmalı olduq. Məhz o zaman Xanın böyüklüyünün, alicənablığının, əsl Azərbaycalı kişiyə xas olan xüsusiyyətlətinin bir daha şahidi oldum..."

Böyük sənətkarın fəaliyyəti təkcə ifaçılıqla məhdudlaşmayırdı. Onun pedaqoji fəaliyyəti də ayrıca bir mövzudur. Əslində

Xan Şuşinskinin sənəti o qədər əzəmətli, geniş, saf və dolğun olmuşdur ki, bütün müasirləri ondan bəhrələnmişlər. Gənclər isə ona radioda, televiziyada, qramplastinkalarda, disklərdə qulaq asaraq düzgün oxumağı öyrənmişlər.

Asəf Zeynallı adına Bakı orta ixtisas musiqi texnikumunda oxuduğum dövrdə (1973-1977) xanəndəlik sinfində dərs deyən Xan Şuşinskini bütün tələbələr kimi mən də həyəcanla kənardan izləyirdim. Hətta ahıl yaşında da öz gözəlliyi ilə, əzəməti ilə, qaməti ilə o, heyrət təcəssümü idi. Mənim sinif yoldaşlarım – gənc xanəndələr – Səttar Nəsirov, Oqtay Hacıyev öz müəllimlərindən sevə-sevə söz açır, onunla fəxr edirdilər. Həm sənəti ilə, həm şəxsiyyət ilə, həm də geniş və parlaq fəaliyyəti ilə nəsillərə nümunə ola biləcək bir ömür yaşayan Xan Şuşinski öz adını qızıl hərflərlə Azərbaycanın musiqi incəsənətinə, mədəniyyət tarixinə və Azərbaycan xalqının qəlbinə həkk etmiş oldu. Bu gün bu ölməz sənətkarın adını daşıyan məktəblər, küçələr, müsabiqələr, muğam mərkəzləri və s. fəaliyyət göstərir. Xan Şuşinskiyə həsr olunmuş kitablar, elmi əsərlər, kinofilmlər, tele, radio verilişlər saysızdır.

Bu baxımdan M.F.Axundov adına Azərbyacan Milli Kitabxanasının təşəbbüsü ilə nəşr olunan "Xan Şuşinskinin "Biblioqrafiyası" unudulmaz xanəndənin xatirəsinə həsr olunmuş ən gözəl ərməğandır. Xan Şuşinskinin 120 illik yubileyinə təsadüf edən bu biblioqrafiya böyük sənətkarın zəngin həyat və yaradıcılıq yoluna bir daha işıq salaraq, bu yolun əzəmətini, böyüklüyünü ğöz önünə gətirməklə, həm də bizim üçün nə qədər yeni olacaq informasiya, bilgi mənbəyi ilə hamımıza sevinc bəxş edəcək.

Məmnunluqla qeyd etməliyik ki, son 10-15 ildə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının fəaliyyəti, gördüyü böyük işlər bütün mədəni həyatımızı zənginləşdirməklə, hamımızın arzuladığı, əldə etmək istədiyi bilikləri, məlumatları küll halında xalqa təqdim etməkdədir. Uzun illər arxiv tozları altında





uyuyan, diqqətdən, tədqiqatdan kənar qalmış, neçə-neçə qiymətli materiallar kitabxana işçilərinin peşəkar, səbatlı əməyi, tədqiqatı nəticəcində bir araya toplanmış, öyrənilmiş, sistemləşmiş, nəşrə təqdim olunmuşdur.

Milli Kitabxananın direktoru, əməkdar mədəniyyət işçisi, görkəmli ziyalımız professor Kərim Tahirovun rəhbərliyi ilə işıq üzü görən neçə-neçə biblioqrafiyalar, tədqiqatlar, nəşrlər xalqımızın unundulmaz sənətkarlarının xatirəsini bir daha uca tutmağın bariz nümunəsidir. Milli Kitabxananın "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından nəşr etdiyi "Üzeyir Hacıbəyli", "Qara Qarayev", "Fikrət Əmirov", "Niyazi", "Cahangir Cahangirov", "Bülbül", "İmruz Əfəndiyeva", və "Xan Şuşinski" fundamental biblioqrafiyaları təkcə musiqi irsimizin geniş təbliği və dünyada tanıtmaq məqsədilə son illərdə həyata keçirilmiş əhəmiyyətli layihələrdəndir.

Bu fundamental layihələrin ən əhəmiyyətli cəhətlərindən biri də onların görkəmli musiqi xadimlərimiz haqqında kitablarla yanaşı, onlar haqqında hətta kiçicik yazıları və məqalələri də xüsusi bölmələrdə əhatə etməsindən, biblioqrafiyanın sonunda görkəmli sənətkarlar haqqında yazan müəlliflərin xüsusi siyahısının-göstəricisinin verilməsi, habelə onların dünya kitabxanalarında mühafizə olunan əsərlərinin də göstərilməsindən ibarətdir. Digər əhəmiyyətli cəhət kimi bu vəsaitlərin, kitabların elektron versiyalarının Milli Kitabxananın saytında yerləşdirilməsini və İNTERNET-də sərbəst istifadəsinə şərait yaradılmasıdır ki, bu da onların dünya oxucuları tərəfindən istifadəsinə geniş imkan yaratmış olur.

Ü.Hacıbəylinin, Q.Qarayevin, F.Əmirovun biblioqrafiyaları, TÜRKSOY-un fəaliyyəti ilə bağlı nəşrlər və nəhayətdə Azərbaycan bəstəkarlarının piano musiqisinin küll halında nəşr etmək kimi böyük, qlobal bir ideyanı həyatda gerçəkləşdirmək M.F.Axundov adına Milli Kitabxananın həm rəhbərliyinin, həm sıravi işçilərinin böyük amal ilə xalqımızın mədəniyyətinin daha

da geniş təbliğ olunması işində əsl vətənpərvər kimi çalışmalarına dəlalət edir. Əslində bu iş, belə fəaliyyət alqışlanmalıdır. Çünki görülən hər gözəl iş xalqımızın taleyində əbədi yaşayacaq. Deyilənlərə rəğmən bu gün təqdim olunan Xan Şuşinskinin "Biblioqrafiyası" da gözəl işlərdən biridir. Mübarək olsun!

**Sərdar Fərəcov,**
*Ü.Hacıbəylinin ev muzeyinin direktoru,*
*bəstəkar, Xalq artisti*
*13 sentyabr 2021*





## Xan Şuşinskinin həyat və yaradıcılığının əsas tarixləri

***İsfəndiyar Aslan oğlu Cavanşirov 1901-ci ildə avqust ayının 20-də Şuşa şəhərində Qarabağ xanı Pənahəli xanın nəslindən olan Məhəmməd bəy Cavanşirin kötükcəsi - Aslan ağa Cavanşirin ailəsində anadan olmuşdur.***

**1909-1911** – İlk təhsilini Şuşa mədrəsəsində almışdır.

**1911-1915** – Təhsilini Şuşa Realnı məktəbdə davam etmişdir.

**1916** – Ustadı İslam Abdullayevin yanında şagirdliyə başlamışdır.

**1918** – 16 yaşında olarkən Ağdamın Novruzlu kəndində keçirilən toy mərasimində "Kürdü-Şahnaz" muğamını təbrizli xanəndə Əbdülhəsən Xanın üslubunda ifa etdiyinə görə ustadı İslam Abdullayev ona "Xan Şuşinski" adını vermişdir;
– Ailəsi ilə birlikdə Ağdam şəhərinə köçmüşdür.

**1919** – İyun ayına qədər İslam Abdullayevin yanında muğam dərsləri almışdır;
– Gəncədə hərbi xidmətə çağırılmışdır. Lakin yenicə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti dövründə xanəndəlik fəaliyyətindəki uğurlarına görə hərbi komendantlıq tərəfindən hərbi xidmətdən azad edilmişdir.

**1919 - 1920** – Gəncə şəhərində xanəndəlik fəaliyyəti ilə məşğul olmuşdur;

– "Şuşanın dağları" mahnısını bəstələmiş və sevə-sevə ifa etmişdir.

**1920** – Üzeyir bəy Hacıbəyli Ağdamda gənc xanəndəni dinləmiş və ona incəsənət xadimləri ilə birlikdə təşviqat briqadası tərkibində konsertlər verməsini təklif etmişdir.

**1923** – Bakıda ilk çıxışı olmuşdur.

**1924** – Nəriman Nərimanovla görüşüb, onun xahişi ilə bir neçə təsnif və mahnı ifa etmişdir.

**1926** – Ağdamda qardaşı tarzən Allahyar Cavanşirovla birlikdə Xalq Çalğı Alətləri Ansamblı yaratmış, həmin ansamblın rəhbəri və solisti kimi fəaliyyət göstərmişdir.

**1928** – Avqust ayında Gürcüstan İncəsənət İttifaqı (RABİS) tərəfindən Tiflis və İrəvan şəhərlərinə rəsmi dəvət almış və konsertlər vermişdir.

**1929** – Ağdamda Mollaoğlu Bəhram, Şelli Məhəmməd, Mehralı oğlu Bahadır və başqa musiqiçilərdən ibarət Xalq Çalğı Alətləri ansamblı yaratmışdır.

**1932** – 14 apreldə "Əməyə vicdanlı yanaşmaya" görə Azərbaycan Radio Verilişləri Komitəsi tərəfindən Fəxri Fərmanla təltif edilmişdir;

**1933** – 15 apreldə səhnə fəaliyyəti ilə əlaqədar Ağdam rayonu Həmkarlar Şurası tərəfindən Fəxri Fərmanla təltif edilmişdir.





**1934** – Bakıda keçirilən Dövlət tədbirlərinə dəvət almışdır.
– "Zaqafqaziya Xalqları Musiqi Olimpiadası"nda iştirak etmək üçün Qarabağdan Bakıya dəvət edilmişdir;
– Tiflisdə keçirilən Zaqafqaziya xalqlarının I Olimpiadasının qalibi olmuş və Birinci dərəcəli Fəxri Fərmanla təltif olunmuşdur;
– M.Y.Lermontovun Bakıda keçirilən 120 illik yubileyində iştirak etmiş, hətta onun tərcümə olunmuş şeirlərini avazla oxumuşdur.

**1935** – Öz musiqiçiləri ilə Xankəndi şəhərində yerləşən hərbi hissələrdə konsertlər vermişdir.
– Azərbaycan İncəsənət İşçiləri Həmkarlar İttifaqının Mərkəzi İdarəsi tərəfindən Fəxri Fərmanla təltif edilmişdir.

**1936** – Xalq şairi Səməd Vurğun qələmə aldığı "Azərbaycan" şeirinin bir parçasını Xan Şuşinskiyə ithaf etmişdir.
– "Qəmərim" mahnısını bəstələmişdir.

**1937-1938** – Repressiyaya məruz qalmış Hüseyn Cavidin qəzəllərini oxuduğuna görə hökumət tərəfindən ifasına bir il müddətinə qadağa qoyulmuşdur.

**1938-1939** – Ağdam Müəllimlər Evində "Muğam" sinfi açmışdır.

**1939** – Ailəsi ilə birlikdə Bakıya köçmüş, burada hökumət tərəfindən evlə və Azərbaycan Dövlət Filarmoniyasında işlə təmin olunmuşdur.

**1941** – 30 mayda Azərbaycan SSR Əmək Rezervləri İdarəsi tərəfindən "Sənət və Fabrik Zavod təhsili məktəbləri şagirdlərinin Ümumbakı bədii özfəliyyətinin təşkilinə yaxşı rəhbərlik etidiyinə görə" Fəxri Fərmanla təltif edilmişdir.

**1943** – Gürcü xalqının milli qəhrəmanı haqqında "Mosfilm" və "Gürcüstanfilm" kinostudiyalarının birgə çəkdikləri "Georgi Saakadze" filmində Xan Şuşinskinin ifasında "Heyratı", "Zəmin-xarə", "Mənsuriyyə" muğamları lentə alınmışdır;
– 17 iyunda Azərbaycan SSR Baş Sovetinin Prezidiumunun fərmanı ilə SSRİ tarixində ilk dəfə müstəsna hal kimi Xan Şuşinski birbaşa Azərbaycan Xalq artisti fəxri adına layiq görülmüşdür.

**1944** – Azərbaycan mədəniyyət və incəsənət xadimləri ilə birlikdə 3 ay müddətində İranda qastrol səfərində olmuşdur. İran şahının məclisində "Mirzə Hüseyn" segahını və "Qarabağ şikəstəsini" mahir ustalıqla ifa etdiyinə görə şah tərəfindən xüsusi mükafatlandırılmışdır;
– 17-27 dekabrda Tiflisdə keçirilən Zaqafqaziya Respublikalarının Musiqi Dekadasında iştirak etmişdir.

**1946** – Özbəkistan və Azərbaycan kənd təsərrüfatı qabaqcılları və incəsənət xadimlərinin qarşılıqlı yarışma, mübadilə tədbirləri çərçivəsində Özbəkistanda qastrol səfərində olmuşdur;
– 21 apreldə "1941-1945-ci illər Böyük Vətən müharibəsindəki mədəni xidmətlərinə görə" medal ilə təltif edilmişdir;





– Xanəndənin ifasında "Şur", "Rast", "Mirzə Hüseyn" segahı, "Qarabağ şikəstəsi" muğamları, özünün bəstələdiyi "Şuşanın dağları" mahnısı vala yazılmışdır.

**1955** – 18 iyulda Şuşada İsa bulağında Səməd Vurğunla son görüşü olmuşdur.

**1956** – Üzeyir Hacıbəylinin "Məşədi İbad" operettası əsasında çəkilən "O olmasın, bu olsun" filminə xanəndə roluna dəvət almış və "Şahnaz" muğamını özünəməxsus ustalıqla dəqiqə yarım müddətində ifa etmişdir.

**1958** – 29 apreldə Bakı Şəhər Zəhmətkeş Deputatları Sovetinin İcraiyyə Komitəsi tərəfindən SSRİ V çağırış Ali Soveti seçkilərinin hazırlanması və keçirilməsində mədəni xidmət işlərində fəal iştirakına görə Fəxri Fərmanla təltif edilmişdir.

**1959** – Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti ongünlüyündə iştirak etmişdir;
– 20 iyunda Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti ongünlüyündə iştirakı ilə əlaqədar "Şərəf Nişanı" ordeni ilə təltif edilmişdir;
– "Ay qəşəng ceyran" mahnısını bəstələyib ifa etmişdir.

**1967** – Yaradıcılıq fəaliyyətinin 50 illiyi münasibəti ilə yubiley tədbirləri keçirilmişdir;
– 3 fevralda Kirovabad şəhər İcraiyyə Komitəsi Deputatlar Şurası tərəfindən yaradıcılığının 50 illik yubileyinin keçirilməsi ilə əlaqədar Fəxri Fərmanla təltif edilmişdir.

**1969** – Maestro Niyazinin təşəbbüsü ilə Azərbaycan Dövlət Filarmoniyası nəzdində "Muğam studiyası"nı yaratmış və ona rəhbərlik etmişdir;
– Bakıda keçirilən “Qızıl payız” musiqi festivalında münsiflər heyətinin sədri təyin olumuşdur.

**1971** – Azərbaycan Dövlət Filarmoniyasında anadan olmasının 70 illik yubileyi keçirilmişdir;
– 29 dekabrda Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti tərəfindən Azərbaycan musiqi incəsənəti sahəsində xidmətlərinə və anadan olmasının 70 illik yubileyi münasibətilə Fəxri Fərmanla təltif olunmuşdur;
– Vəli Məmmədovun “Havalansın Xanın səsi” kitabı çapdan çıxmışdır;
– Əmək veteranı adına layiq görülmüş və “Lenin” medalı ilə təltif olunmuşdur.

**1973** – A.Zeynallı adına Musiqi Məktəbində müəllimlik fəaliyyətinə başlamışdır;
– Xanəndə sonuncu dəfə səhnəyə çıxıb ifa etmişdir.

**1976** – Azərbaycan SSR Nazirlər Sovetinin Televiziya və Radio proqramları Dövlət Komitəsi tərəfindən Azərbaycan radiosunun yaradılmasının 50 illiyinə həsr olunmuş ədəbi-dram və musiqi proqramlarında fəal iştirakına görə Fəxri Fərmanla təltif edilmişdir.

**1979** – 18 martda Bakıda vəfat etmişdir. Fəxri Xiyabanda dəfn olunmuşdur.





**1985** – Ağdam şəhərində Xan Şuşinski adına Muğam məktəbi yaradılmışdır.

**1989** – 29 dekabrda Bakı şəhərində keçmiş Aslan Qaraşarov adına küçəyə Xan Şuşinskinin adı verilmişdir;
– Müəllifi Firudin Şuşinski olan “Xan Şuşinski” kitabı çap olunmuşdur.

**2001** – 20 iyulda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalanmışdır;
– Heydər Əliyevin Sərəncamı ilə 100 illik yubileyi böyük təntənə ilə qeyd olunmuşdur;
– 14 dekabrda Bakı şəhərində son yaşadığı ünvana xatirə lövhəsi həkk olunmuşdur;
– “Havalansın Xanın səsi” adlı telefilm çəkilmişdir;
– Mustafa Çəmənlinin “Muğam dünyasının Xanı” kitabı çap olunmuşdur.

**2004** – Dövlət Müəllif Hüquqları Agentliyində Xan Şuşinskinin bəstələdiyi 8 mahnının (“Şuşanın dağları”, “Qəmərim” “Ay qəşəng ceyran”, “Ay qara qız”, “Qızıl gül”, “Ay gözəl”, “Ay dilbər”, “Ölürəm ay Ceyran bala”) müəlliflik hüququ təsdiq olunmuşdur.

**2011** – Xan Şuşinskinin 110 illik yubileyi qeyd olunmuşdu;
– 29 dekabrda Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən verilmiş 1111-Q 38-3000 nömrəli şəhadətnamə əsasında Xan Şuşinski Fondu yaradılmışdır.

**2012** – Azərbaycan Televiziyasının təqdimatı ilə "Xan Şuşinski" sənədli film çəkilmişdir.

**2014** – İctimai televiziya "Carcıfilm" Yaradıcılıq Birliyi tərəfindən "Xanın səsi" adlı sənədli film çəkilmişdir;
– Azərmarka tərəfindən "Xan Şuşinski" poçt markası hazırlanmışdır.

**2016** – Şahlar Baba Şuşalının "Mən tanıyan Xan əmi" kitabı çap olunmuşdur.

**2017** – Mustafa Çəmənlinin "Xan Şuşinski" kitabı çap olunmuşdur.

**2019** – Mustafa Çəmənlinin "Muğam dünyasının Xanı" kitabı çap olunmuşdur.

**2021** – Anadan olmasının 120 illiyi münasibətilə M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası tərəfindən "Xan Şuşinski" adlı elektron məlumat bazası hazırlanmışdır;
– M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası tərəfindən "Xan Şuşinski. Biblioqrafiya" kitabı nəşr olunmuşdur.





## Основные даты жизни и творчества Хана Шушинского

***20 августа 1901 года в Шуше, в семье Аслана ага Джаваншира – потомка Мухаммеда бека Джаваншира из рода великого карабахского хана – Панахалихана родился Исфендияр Аслан оглу Джаванширов.***

**1909-1911** – Получил начальное образование в Шушинском медресе.

**1911-1915** – Продолжил обучение в Шушинском Реальном Училище.

**1916** – Начал обучаться мастерству у Ислама Абдуллаева

**1918** – В 16 лет на свадьбе в агдамском селе Новрузлу исполнил мугам «Кюрдю-Шахназ» и творческой манере тебризского ханенде Абдулхасан Хана. За виртуозное исполнение этого мугама устад Ислам Абдуллаев нарёк 16-летнего исполнителя Ханом Шушинским;
– Вместе с семьей переехал в Агдам.

**1919** – До июня обучался искусству мугама у Ислама Абдуллаева;
– Был призван на военную службу в Гяндже. Однако во время только что образованной Азербайджанской Демократической Респуб-

лики был освобожден военной комендатурой от несения службы за успехи в певческой деятельности.

**1919 - 1920** – Продолжил певческую деятельность в Гяндже;
– Создал песню «Шушанын даглары» («Горы Шуши») и с большим чувством исполнял ее.

**1920** – Прослушав выступление молодого певца в Агдаме Узеир бек Гаджибеков предложил ему выступать с концертами в агитационной бригаде деятелей искусства

**1923** – Состоялось первое выступление в Баку.

**1924** – Встретился с Нариманом Наримановым и по его просьбе исполнил несколько теснифов и песен.

**1926** – Вместе с братом, таристом Аллахъяром Джаваншировым создал в Агдаме Ансамбль Народных Инструментов, в котором выступал в качестве руководителя и солиста.

**1928** – В августе по официальному приглашению от Художественного Союза Грузии (RABİS) выступил с концертами в Тифлисе и Ереване.

**1929** – Создал в Агдаме Ансамбль Народных Инструментов, в котором были задействованы Бахрама Моллаоглу, Мухаммеда Шелли, Бахадура Мехралы оглу и другие музыканты.





**1932** – 14 апреля был награжден Почетной Грамотой Азербайджанского комитета радиопередач «За добросовестное отношение к труду»;

**1933** – 15 апреля в связи с торжественным 20-летним юбилеем творческой деятельности был награжден Почетной Грамотой Агдамского Профсоюза .

**1934** – Получил приглашение к участию в государственных мероприятиях в Баку
– Был приглашен из Карабаха в Баку для участия в «Музыкальной Олимпиаде народов Закавказья»;
– Стал победителем I Олимпиады народов Закавказья в Тифлисе и был удостоен Почетного Диплома Первой степени;
– Принял участие в состоявшемся в Баку юбилее в честь 120-летия М.Ю.Лермонтова и исполнил его стихи, переведенные на азербайджанский язык.

**1935** –Вместе с музыкантами своего ансамбля выступил с концертами в военных подразделениях на территории Ханкенди.
– Был удостоен Почетной Грамоты Центрального Управления Профсоюза работников искусства Азербайджана.

**1936** – Народный поэт Самед Вургун посвятил Хану Шушинскому отрывок из своего стихотворения «Азербайджан».
– Создал песню «Гэмэрим» («Моя Гэмэр»)

**1937-1938** – В связи с тем, что исполнял газели на стихи репрессированного поэта Гусейна Джавида, был на год отстранен от выступлений.

**1938-1939** – Открыл в Агдамском Доме Учителей класс «Мугама»

**1939** – Переехал вместе с семьей в Баку, где получил от государства квартиру и принят на работу в Азербайджанскую Государственную Филармонию.

**1941** – 30 мая был удостоен Почетной Грамоты Общества Трудовых Резервов «За хорошее руководство организации общебакинской художественной самодеятельности среди учащихся Школы Фабричной Молодежи»

**1943** – В фильме «Георгий Саакадзе» (о национальном герое грузинского народа), снятом совместно на киностудиях «Мосфильм» и «Грузияфильм» исполнил мугамы «Хейрати», «Замин-хара», «Мансурия»;
– 17 июня по указу Президиума Верховного Совета Азербайджанской ССР впервые в истории СССР в порядке исключения Хану Шушинскому было присвоено звание Народного артиста Азербайджана (минуя звание «Заслуженного артиста»)

**1944** – Вместе с деятелями культуры и искусства Азербайджана находился в трехмесячных гастролях в Иране. Был удостоен особой шахской





награды за виртуозное исполнение сегяха «Мирза Хусейн» и «Карабах шикестеси»
– 17-27 декабря принял участие в Музыкальной Декаде Закавказской Республики, состоявшейся в Тифлисе.

**1946** – Был на гастролях в Узбекистане в рамках всесоюзного социалистического соревнования между передовиками сельского хозяйства и деятелями искусства Узбекистана и Азербайджана;
– 21 апреля был награжден медалью «За заслуги в области культуры в годы Великой Отечественной Войны 1941-1945 гг.»
– На грампластинки в исполнении певца были записаны сегяхи «Шур», «Раст», «Мирза Гусейн», мугам «Карабах шикестеси», а также сочиненная Ханом Шушинским песня «Горы Шуши»

**1955** – 18 июля в Шуше около Иса булагы (родник «Иса») состоялась последняя встреча с Самедом Вургуном

**1956** – Был приглашен на роль ханенде в фильм «Не та, так эта» по оперетте Узеира Гаджибекова «Мешади Ибад» и исполнил мугам «Шахназ» в присущей ему авторской манере.

**1958** – 29 апреля был награжден Почетной Грамотой Исполнительного Комитета Совета Рабочих Депутатов города Баку за активное участие в области культуры при подготовке выборов в Верховный Совет СССР V созыва.

**1959** – Принимал участие в декаде азербайджанского искусства и литературы в Москве;
– 20 июня был удостоен ордена «Знак Почета» в связи с участием в декаде азербайджанского искусства и литературы в Москве
– Исполнил написанную им песню «Ай гешенк джейран» («Ах, красавица-джейран»)

**1967** – Состоялись юбилейные торжества в связи с 50-летием творческой деятельности;
– 3 февраля в связи с 50-летием творческой деятельности Хан Шушинский был награжден Почетной Грамотой Совета Депутатов Исполнительного Комитета города Кировабада.

**1969** – По инициативе маэстро Ниязи создал «Студию мугама» при Азербайджанской Государственной Филармонии;
– Был назначен председателем творческого совета на музыкальном фестивале «Золотая осень» в Баку.

**1971** – В Азербайджанской Государственной Филармонии состоялся 70-летний юбилей певца;
– 29 декабря в честь 70-летия со дня рождения и за огромные заслуги в области азербайджанского музыкального искусства был награжден Почетной Грамотой Президиума Верховного Совета Азербайджанской ССР;
– Вышла в свет книга Вели Мамедова «Пусть звучит голос Хана»;
– Был удостоен звания ветерана труда, а также медали Ленина.





**1973** – Начал преподавательскую деятельность в Музыкальном Училище им. А.Зейналлы;
– Певец в последний раз вышел на сцену.

**1976** – За активное участие в музыкальных и литературно-драматических программах, посвященных 50-летию азербайджанского радио, был награжден Почетным Дипломом Государственного Комитета Телевидения и Радиовещания Совета Министров Азербайджанской ССР.

**1979** – Скончался 18 марта в Баку. Был погребен на Аллее Почетного Захоронения

**1985** – В Агдаме была создана Школа Мугама им. Хана Шушинского .

**1989** – 29 декабря улица Аслана Гарашарова в Баку была переименована в улицу Хана Шушинского;
– Вышла в свет книга Фирудина Шушинского «Хан Шушинский»

**2001** – 20 июля Президент Азербайджанской Республики Гейдар Алиев подписал распоряжение о праздновании 100-летнего юбилея певца;
– По распоряжению Гейдара Алиева состоялись юбилейные торжества в честь 100-летия ханенде;
– 14 декабря в Баку на стене дома, где жил певец, была установлена памятная доска;

– Был снят телефильм « Пусть звучит голос Хана»
– Была издана книга Мустафы Чеменли « Хан мира мугама»

**2004** – В Государственном Агентстве Авторских Прав были закреплены авторские права на 8 песен Хана Шушинского («Горы Шуши», «Моя Гэмэр», «Ах, красавица-джейран», «Ах, смуглянка», «Роза», «Ах, красавица», «Прелестница», «Умру за тебя, красавица»

**2011** – Состоялись юбилейные торжества в честь 110-летия Хана Шушинского;
– 29 декабря на основе свидетельства 1111-Q 38-3000 Министерства Юстиции Азербайджанской Республики был образован Фонд Хана Шушинского

**2012** – По заказу Азербайджанского Телевидения был снят телевизионный фильм «Хан Шушинский».

**2014** – На Общественном телевидении творческим Объединением «Джарджыфильм» был снят документальный фильм «Голос хана»;
– Была создана почтовая марка «Хан Шушинский»

**2016** – Была опубликована книга Шахлара Баба Шушалы « Дядя Хан, каким я его знал»





**2017** – Была издана книга Мустафы Чеменли «Хан Шушинский».

**2019** – Была издана книга Мустафы Чеменли «Хан мира мугама»

**2021** – В честь 120-летия со дня рождения певца Азербайджанской Национальной Библиотекой им. М.Ф.Ахундова была подготовлена электронно-информационная база «Хан Шушинский»;
– Азербайджанской Национальной Библиотекой была подготовлена библиография «Хан Шушинский»

## Xan Şuşinski Azərbaycan musiqisi və görkəmli sənətkarlar haqqında

*Təxmini 1918-ci il olardı. Bizi toya aparmışdılar. Toy sahibinin evində qrammofon var idi. Soruşduq ki, kimin sizdə plastinkaları var. Dedilər Cabbarın, Seyidin, İran xanəndəsi Əbülhəsən Xanın. Əbülhəsən Xanın plastinkasını qoyub oxutdular. Mən çox diqqətlə qulaq asıb musiqinin təsirinə düşmüşdüm. Məndən soruşdular ki, sən də elə oxuya bilərsənmi? Dedim: Bəli! Mən oxuyandan sonra mənə dedilər ki, İranın Əbülhəsən Xanı var sən də oldun bizim Xan. Beləliklə mənə Xan adını verdilər.*

***

*Üzeyir bəyi heç kəslə bir tərəziyə qoymaq olmaz. Yaman muğampərəst idi. Şuru, Qarabağ şikəstəsini, Simayi-Şəmsi çox sevərdi. Mənim ifamı da çox sevirdi. Çox istəyirdi ki, məni operaya gətirsin. Bunu mən özüm istəmədim. Səhnəyə çıxıb rol oynamağı sevmirdim.*

***

*Toylardan birində aşıq "Apardı sellər Saranı" oxuyurdu. Xoşum gəlmədi ifadan. Xahiş elədim ki, onu yazıb versin mənə. Dedi ki, bu mahnı aşıq mahnısıdır. Xanəndə oxumaz. Xahişimdən sonra onu yazıb verdi mənə. Elə oradaca oxudum. Dedim bu mahnının qolun qanadın qırırsan. Bu tezlikdə oxunan mahnı deyil bu. Bunu ürəkdən yaratmaq lazımdır.*

***

*Xalq ifaçılığı sənətində xüsusi hörməti və yeri olan Ağdam rayonunun "Şur" ansamblının hər bir üzvünün ifaçılığı təqdirə-*





*layiqdir. Bunlar Qarabağ ifaçılıq məktəbinə uyğun əsil muğam ifaçılığı yolu ilə milli adət və ənənələrimizi müvəffəqiyyətlə yaşadır, müasir şəkildə nümayiş etdirirlər. Hələ qədim oxuyanlarımız arasında dəbdə olan bir dəsgahın bir neçə xanəndə tərəfindən ifa olunması, muğamdan muğama keçmək qaydaları kollektivin yüksək sənətkarlıq xüsusiyyətlərini göstərir.*

***

*Həmişə, hər zaman sevə-sevə dinlədiyimiz Cabbar Qaryağdıoğlu sənətin ən yüksək zirvələrinə qalxdıqca belə, dinclik nə olduğunu bilmir, axtarışlar aparırdı. O, həmişə öyrənməyə çalışır, xalqımızın milli ənənələrinə arxalanırdı. Arzu edirəm ki, indiki gənclər də özlərinə daim tələbkarlıqla yanaşsınlar. Milli ifaçılıq ənənələrimizi bacarıqla davam etdirsinlər, muğam dəsgahlarını yad və yabançı təsirlərdən qorusunlar.*

***

*Konsert salonlarında gənclər arasından istedad axtarmaq xeyirxahlıq kimi qiymətləndirilməlidir.*

***

*Mən təsəvvür edə bilmirəm ki, "Şur"da nikbin məhəbbət qəzəli oxuna. Axı, bu muğam musiqi dili ilə qəmli bir əhvalat danışır. Gərək elə qəzəl seçəsən ki, musiqinin danışdığı hekayətlə uyuşa.*

*Pənbəyi-daği-cünun içrə nihandır bədənim,*
*Diri olduqca libasım budur, ölsəm, kəfənim.*[*]

*Mən həmişə "Şur"da bu qəzəli oxuyuram və mənə elə gəlir ki, muğamın dinləyicidə oyatdığı duyğular bu qəzələ daha çox yaxındır.*

[*] Məhəmməd Füzulinin "Pənbeyi-daği-cünun içrə nihandır bədənim" adlı qəzəlindən bir bənd.

***

*Xanəndənin özünü səhnədə aparması, ümumiyyətlə, səhnə mədəniyyəti ifaçılıq sənətinin çox vacib məsələlərindən biridir. Xanəndənin çıxışı onun səhnəyə atdığı ilk addımdan başlayır. Muğam ifaçısına estrada müğənnisinin hərəkətləri yad olmalıdır.*

***

*Muğamın adama qəm-qüssə gətirdiyini düşünənlər səhv edirlər. Muğam təsəllidir, təskinlikdir.*

***

*Mən bir şeydən kədərləndikdə oxumaqla ovunuram. Bədəndəki ağrını barmaqla çıxardırlar. Muğam da ürəkdəki ağrıların məlhəmidir.*

***

*Mən çox istərdim ki, zəngin ənənəsi olan Azərbaycan xalq musiqisi sənətinin taleyi hər bir adamı ciddi düşündürsün. Ancaq bunun üçün yanmaq, acımaq lazımdır. Xalqımızın gözəl bir məsəli var, deyir: "Ürək yanmasa, gözdən yaş çıxmaz".*

***

*Xanəndənin yaxşı səsi olmalıdır. Ancaq gərək əla oxumağı da bacarasan. Əgər birisi hərfləri yaxşı tanıyır və ancaq cümlə qura bilirsə, ona jurnalist demək olmaz. Gərək o adam yaxşı yaza da bilə. Xanəndə də belə olmalıdır. Mən bəzi muğamları yeni qaydada oxumuşam. Bunu çalıb oxuyanlarımız daha yaxşı bilirlər. Məsələn, "Segah"da "Müxalif" yox idi, onu mən artırmışam. "Rast"da "Əraq" şöbəsi var, amma mən oxuduğum ondan seçilir. "Rast"a "Dilkəş"i də mən artırmışam. Buna həm həvəsim var idi, həm də səsim imkan verirdi.*

***

*Ustadın həyatı da, təcrübəsi də, məsləhətləri də bir məktəbdir.*





***

*Tarzən Məşədi Cəmil mizrabı simlərə toxundurdu, Seyid "Çahargah"ı "Mənsuriyyə" pərdəsi üstündə bardaş etdikdə mən yerimdə quruyub qaldım. O, muğamın başlanğıcını zildə beş-on dəqiqə gəzişdikdən sonra "Çahargah"ın mayəsinə elə ustalıqla endi ki, hamı heyran qaldı. Bu, xanəndəlik aləmində misli bərabəri görünməmiş bir ustalıq idi. Seyidin uzun nəfəsləri, coşqun zəngulələri, xüsusilə burnunda zəngulə vurması və boğazındakı xırda qaynatmaları məni bihuş etdi. Seyidin "Çahargah"ı saat yarım çəkdi. Mən onda bildim ki, xanəndəlik nə deməkdir.*

***

*Xanəndə üçün əsas meyar səsdir. Məlahətli, zil səs isə o vaxt ürəyəyatımlı olur ki, muğamlarımıza, zəngin mahnı və təsniflərimizə yiyələnəsən, münasib şeir, qəzəl öyrənəsən. İş bununla da bitmir. Xanəndə musiqinin ahənginə, ritminə səsini-ruhunu qovuşdurmalıdır. Lazım gəldikdə qavalda bəhr də tutmağı bacarmalıdır.*

***

*Atam Hacı Hüsünün ifasından əxz etdiyi guşə və "nəfəs"ləri pəs səslə oxuyub mənə öyrədərdi. Burasını da deyim ki, Cabbar, Seyid böyük məktəb idi. Onlardan çox şey öyrənmişəm. Lakin ilk müəllimim İslam Abdullayevdir. Bir müddət onunla birlikdə çalıb-çağırmışam. İlk dəfə oxuduğum isə "Segah" muğamı olub: on üç-on dörd yaşlarımda, İslam əminin məclisində.*

***

*"Segah"la bu sənətə bağlanmışam. "Segah" və "Qarabağ şikəstəsi" elə bilirəm mənə ömür yoldaşı olub. Elə ki, cavanlıq-ahıllıq yaşına çatdım, mübarizlik, nikbinlik ruhu qəlbimdə aşıb daşdı. "Kürdü-Şahnaz", "Mahur", "Rast", "Şur", "Heyratı", "Arazbarı" muğamlarına meyl saldım.*

***

*Hər muğamın, hər havanın öz ritmi olduğu kimi, öz nəbzi də var, gərək onu tutasan. Muğam, mahnı, təsnif insan ürəyi kimi canlıdır. Öz ahəngi ilə döyünür. Hər bir muğama uyğun ölçüdə qəzəl seçmək lazımdır. Bu sözün yaratdığı əhval da ahəngin seçilməsinə kömək edir.*

*Əvvəlində muğam oxunan hər mahnıya təsnif deməzlər. Təsnif adlandırılan hava kökləndiyi muğamın ən azı iki şöbəsinə toxunur.*

***

*Canəli Əkbərovun çox gözəl, rəvan və yüksək diapazonlu səsi var. Bu səs həm bəmdə, həm də zildə rahat işləyir. O, muğamın bütün guşələrini məharətlə ifa edir. Onun oxuduğu "Heyratı", "Qarabağ şikəstəsi", "Çahargah" və başqa muğamlar çox xoşuma gəlir. Mən onun gələcəyinə inanıram.*

***

*Muğam heç zaman köhnəlməz, əksinə yenilənər. Muğamı nə qədər yaxşı oxusan, yaxşı da olar. Mən oxumuşam Rast, Çahargah, Şur, Orta Mahur, Kürdü-Şahnaz, Heyratı, Qatar. Mən bu mağamlarda çox yeniliklər etmişəm.*

***

*Dostum Səməd Vurğun "Dünya" qoşmasını mənə sağ ikən verməsinə bamayaraq müəyyyən səbəblərdən mən onu sağlığında oxuya bilmədim. Ancaq öləndən sonra oxudum. Elə bil şair bu şeiri öz ölümünə əbədiyyyət himni yazmışdı. Elə ona görə də şair həyatla vidalaşanda bütün Azərbaycan onu öz şeirinin misraları ilə son mənzilə yola saldı. İndiyə qədər üç böyük sənətkarı, üç adamı – Üzeyir bəyi, Bülbülü və Səməd Vurğunu bütün Azərbaycan beləcə torpağa tapşırıb. Bu insanlar haqqında onlar mənim dostum olub, deyə yaxşı adamdır demirəm. Ona görə deyirəm ki,*





*onların xalq üçün, ölkə üçün etdikləri hər kişinin işi deyil, ər kişinin işidir.*

***

*Mən muğamı ulu ustadlardan öyrənə-öyrənə, illərin çətin sınağından min bir əziyyətlə keçirərək, yad nəfəslərdən qoruyaraq gənc nəsillərə, bu günümüzə gətirib çıxardım. Sizdən də bir təvəqqem var, bu ərməğanı qoruyun, gələcək nəsillərə olduğu kimi çatdırın.*

## Görkəmli şəxsiyyətlərin Xan Şuşinski haqqında dəyərli fikirləri

“Azərbaycan klassik xanəndəlik ənənələrinin layiqli davamçılarından biri olan Xan Şuşinski müstəsna fitri istedadı, geniş diapazonlu gur və məlahətli səsi, yüksək ifaçılıq mədəniyyəti sayəsində Azərbaycan muğam sənətini zənginləşdirmiş bir neçə muğama yeni xallar, guşə və şöbələr əlavə etmişdir. Onun ifasında səslənmiş muğam və xalq mahnıları əsl sənət inciləri kimi milli musiqi mədəniyyəti xəzinəmizə həmişəlik daxil olmuşdur. Öz 60 illik yaradıcılığı ilə Azərbaycan xanəndəlik sənəti tarixində özünəməxsus məktəb yaratmış Xan Şuşinski ölkəmizdə istedadlı ifaçılar nəslinin yetişdirilməsinə də böyük əmək sərf etmişdir.”

**Heydər Əliyev,**
*Ümummilli lider*

***

“Xanda Həzrəti Davud ləni var!

Allahın iki böyük neməti var: səs və gözəllik. Allah hər ikisini Xana verib, ona görə də o, daha qabağa gedəcək.

Xan kimi yüksək zövqnən ifa edən ikinci bir xanəndə hələ ki, yoxdur.”

**Cabbar Qaryağdıoğlu,**
*Xalq artisti*

***

“İsfəndiyar Aslan oğlu Cavanşirov hələ gənc yaşlarında öz parlaq sənətinə görə xalq tərəfindən Xan Şuşinski adına layiq





görülmüşdür. Xan Şuşinskinin sənəti, sözsüz, Azərbaycan musiqisində böyük hadisədir. Bulaq təki saf və yumşaq səs, geniş diapazon, son dərəcə sərbəst ifa tərzi xanəndənin romantik görkəmi ilə uzlaşaraq həm tamaşaçılar, həm də dinləyicilərin ürəyində dərin iz buraxmışdır.”

**Tofiq Quliyev,**
*Xalq artisti*

***

“Qoca xanəndələr bulağın gözüdür, onlarda xəzinə vardır.”

**Bülbül,**
*SSRİ Xalq artisti*

***

“Çətin ağlım kəsir ki, Xandan sonra belə gözəl səsə malik xanəndə dünyaya gəlsin.”

**Şəkili Ələsgər Abdullayev,**
*Xanəndə*

***

“Mən çox oxuyan görmüşəm. Amma Xan kimi gözəl səsli xanəndə görməmişəm.”

**Zülfü Adıgözəlov,**
*Azərbaycan SSR əməkdar artisti*

***

“Göstər mənə elə bir xalq ki, mənim xalqım kimi muğamatıma bənzər bir musiqi yaratmış olsun. Buna şübhəsi olan Xan əmiyə qulaq assın.”

**Xudu Məmmədov,**
*Geologiya-mineralogiya elmləri doktoru, professor*

***

“Xan Şuşinskinin səsində olan tembr gözəlliyi heç kəsdə olmayıb. İkinci belə səs yoxdur. Yeganədir! Xan Şuşinski böyük xanəndəydi. O ağzını açıb zil pərdədə bircə nəfəs vuranda bəs eləyirdi. O, “Mirzə Hüseyn” segahının zilini oxuyanda ona qulaq asmaya bilməzdim. Yaxud “Əraq-Pəncgah” oxuyanda, zil səsin o tembrini göstərəndə onu dinləməkdən doymaq olmurdu. Əlbəttə, o, əvəzsiz sənətkar idi. Şəxsiyyət idi. Cəmiyyətdə öz yerini layiqli yer tapmış, öz yerini bilən adam idi.”

**Vasif Adıgözəlov,**
*Xalq artisti, Dövlət Mükafatı laureatı*

***

“Xanın özü təmiz, sözü təmiz, səsi təmizdir. Xan Azərbaycan xalqının iftixarı, böyük Şuşa musiqi beşiyinin ləyaqətli övladıdır – sənətkarı, nəğməkarıdır. Xalqın səsi başı qarlı dağlarımızın sərt sıldırımlarından qopub çağlayan şəlalələr kimi çağlaya-çağlaya güclənir, hava dalğalarını öz sənət ecazkarlığı ilə doldurur, bir musiqi kainatı yaradır. Xanın xidmət etdiyi musiqi xalqımızın özü qədər mənən nəcibdir, zəngindir, əbədidir!”

**Süleyman Rəhimov,**
*Xalq yazıçısı*

***

“Azərbaycan muğam sənətinin tarixində Xan Şuşinskinin xüsusi yeri var. “Gözəl” sözü hər cəhətdən ona yaraşır. Mən ona ilk dəfə 1938-ci ildə Bakı filarmoniyasının səhnəsində qulaq asmışam. Bütün tamaşaçılar kimi, mən də ilhamlı, gözəl təsirli bir sənətin tilsiminə düşmüşdüm. Onun füsunkar cazibəsi nə qədər şirin, nə qədər dadlı idi. Sonralar da dönə-dönə bu sənətkarın gözəl sənətinin minlərlə adama necə yüksək zövq və ləzzət verdiyinin şahidi olmuşam. Onun sənəti klassik ənənələrə





əsaslanır. Xan bu ənənələrin ən gözəl və zəmanəyə uyğun olanlarını davam etdirib yaşatdığı üçün müasirlərin belə məhəbbətini qazanmışdır.”

**Mirzə İbrahimov,**
*Xalq yazıçısı*

***

“Xanın səsi Bakıya gözəl Qarabağ bulaqlarının zümzüməsini, çiçəklərinin ətrini, şəlalələrinin cəh-cəhini gətirirdi. Bu səs uzun illər bizə məhəbbət, səadət, hicran, vüsal mahnılarını yetirmişdir. Xan öz səsi ilə minlərlə sevgililərin şənliyində iştirak etmişdir. Xan oxuyarkən onun üzündə əzab əlaməti görməzsiniz. Bu, xanəndə üçün məziyyətdir.”

**Süleyman Rüstəm,**
*Xalq şairi*

***

“Azərbaycan xalq havalarını və klassik muğamlarımızı məharətlə ifa edən məşhur xalq xanəndəsi Xan Şuşinski milyonların sevimlisidir. Xanın səsi sözün əsl mənasında dağ çeşməsidir, coşğun şəlalədir. Onun zəngulələri uzun illərdən bəridir ki, ürəkləri fəth etmişdir. Mən deyərdim ki, Xanın səsi nadir vergidir. Qarabağın gözəlliklərinin, ahəngi, bülbüllərinin incə cəh-cəhləri onun nəfəsinin ahəngində öz təzahürünü tapır.”

**Məmməd Rahim,**
*Xalq şairi*

***

“Xan Şuşinskinin adı mənə 1929-1930-cu illərdən tanışdır. Onun görkəmli və şairanə simasını filarmoniya səhnəsində və başqa mədəniyyət ocaqlarında arabir görər və təkrarolunmaz, əvəzedilməz məlahətli səsini eşidər: “Ah, bizim nə gözəl oxuyanımız, müğənnimiz, sənətkarımız varmış” dəyərdim. Mən bir

də böyük sənətkarımıza ona görə minnətdaram ki, o, çox sevdiyim şairlərin-Füzulinin, Vaqifin, S.Vurğunun ürəkləri vəcdə gətirən, fəth edən misilsiz şeirlərinin ən gözəl ifaçısı və yaradıcısıdır."

**Osman Sarıvəlli,**
*Xalq şairi*

***

"Xanın sənəti ilə şəxsiyyəti təcridolunmaz vəhdətdədir. Müğənni insani-məziyyətləri və ifaçılıq qüdrəti ilə ibrətamiz nümunədir."

**Səid Rüstəmov,**
*Xalq artisti*

***

"Atalar gözəl bir söz deyib! Yaxşı qız atanın başını ucaldar, yaxşı oğul Vətənin. Xan Şuşinski dedikdə insanın gözündə Şuşa ucalır. O şuşalı olduğunu sübut etmişdir. Onun qiymətini vermək çox çətindir. "Rast"ı bir saata yaxın oxuyardı, görəndə ki, camaat doymur, yaxud yeni qonaqlar var oxumağını kəsməzdi. "Üzzal" eləyərdi, keçərdi "Xaric Segah"a. Xan Şuşinskinin böyüklüyü, gözəlliyi də bundadır."

**Habil Əliyev,**
*Xalq artisti*

***

"Xan Azərbaycan xalqının çox sevdiyi xanəndələrdəndir. O, hələ gənclik illərində özünün gur və məlahətli səsi ilə fərqlənirdi. Muğamatı və xalq mahnılarını məharətlə ifa edən bir sənətkar kimi şöhrətlənmişdir. Məncə xanı bu qədər şöhrətləndirən təkcə məlahətli səsi deyil, bəlkə onun orijinal bir ifaçı olmasıdır. Xan muğamatı və xalq mahnılarını özünəməxsus bir ləhcə ilə oxuyur.





Muğam qanunları çərçivəsinə sığmayan bu sənətkar heç kimə bənzəmədiyi üçün daha çox sevilir."

**Həmid Araslı,**
*Əməkdar elm xadimi, akademik*

***

Öz həyatını əvvəlcədən intixab etdiyi, ta uşaqlıq dövründən seçib bəyəndiyi sənətə bağlayan adamlar daima qaynar yaradıcılıq fəaliyyəti yaşayır, onların ürəkləri yaradıcılıq alovuyla isinir, onların qəlbi böyük ilham qüdrətilə çırpınır."

**Əfrasiyab Bədəlbəyli,**
*Xalq artisti*

***

"Mən Xanı lap çoxdan tanıyıram. Belə səs mən başqasında nə görməmişəm, nə də eşitməmişəm. Bunnan başqa da bir söz deyə bilmərəm. İpək necədirsə, onun səsi də elə. Qızılı məhəngə çəkərlər onun səsi məhəngdən çıxır. Söz yox ki, o səs məndə olsa mən də tarı qoyub oxuyardım."

**Qurban Pirimov,**
*Xalq artisti, tarzən*

***

"Xalq üçün sənəti sənətkar yaşadır. Xalq üçün yaxşı sənətkar qızıl xəzinəsinə bənzəyir. Çünki xalqın əsrlərdən bəri ürək qanı ilə yaratdığı sənət incilərini ən yaxşı sənətkarlar yaşadırlar. Xan Şuşinski məhz belə sənətkarlardandır. Xanın səsində üstün cəhətlər çoxdur. Muğamlarımızın, xalq mahnılarımızın təravətini qoruyub saxlamaq və gələcək nəsillərə ötürmək hər sənətkara nəsib olmur. Bəlkə də çoxları bilmir ki, Xan özü bir neçə mahnının müəllifidir. Lakin hələ bir dəfə də olsun "müəllif" sözünü dilinə gətirməyib. "Şuşanın dağları", "Al yanağında", "Ay qə-

şəng ceyran", "Ay gözəl" mahnılarını elə gözəl çilalayır ki, qüsur tutmaq olmur."

**Bəhram Mənsurov,**
*Xalq artisti*

***

"Xanın səsinə bərabər gur və məlahətli səs özündən əvvəl olmayıb, ağlım kəsmir sonra da ola. Belə səsi Allah hər adama vermir."

**Sara Qədimova,**
*Xalq artisti*

***

"Xan orta, zil, bir sözlə bütün pərdələri şüşə kimi təmiz oxuyurdu. Onun səsinə bənzəyən səs olmayıb, bu gün də yoxdur. Məgər ona pərəstiş etməyən vardı?! Ona hamı pərəstiş edirdi. Sənətinin heyranları hədsiz çox idi. Muğamsevən ağsaqqallar Bakının kəndlərindən filarmoniyaya Xana qulaq asmağa gələr, oxumasından zövq alardılar. Xan əminin adı olan yerdə böyük qələbəlik olardı."

**İslam Rzayev,**
*Xalq artisti*

***

"Xan sözün həqiqi mənasında canlı ensiklopediyadır. Çox təəssüf ki, bir çox gənc müğənnilərimizin ifasında qüsur olsa da zəngin Xan məktəbindən öyrənmək əziyyətinə qatlanmışlar. Yalnız sənətin nə olduğunu dərk edən ifaçılıq yolunda hər cür məhrumiyyətlərə qatlaşanlar sənət zirvəsinə qalxıb, xalqın sevimlisi olar. Xan bax belələrini görəndə sevinir. Mən ömrümdə iki nəfərə köməkçi olmuşam. Bülbülə, bir də Xan əmiyə. Bülbül mahnıların və muğamların əvəzsiz ifaçısı idi, ondan çox şey öyrənmişəm. Xan əmi ayrı aləm idi, böyük sənətkar idi. Az,





amma mənalı danışardı. Özü adamın səhvini deməzdi, amma elə ki, ondan soruşurdun ki, Xan əmi, bu muğamın filan şöbəsini necə oxuyum, filan muğama necə ayaq verim, hansı təsnifi oxuyum, o saat səni öyrətməyə hazır idi. Xan əmi ilə hansı kənddə, hansı obada olmamışam ?! Nə qədər konsertlər vermişik onunla. Xan əmi ilə "Ay gözəl", "Yaylığım" duetlərini oxumuşam, həmişə də ustalığına, səsinə heyran olmuşam."

**Şövkət Ələkbərova,**
*Xalq artisti*

***

"Xan Şuşinski muğamların canlı ensiklopediyasıdır. Onunla Şəkidə, Bərdədə, Tovuzda, Qazaxda, Gədəbəydə qastrol səfərlərində olmuşam. O, təkcə böyük müğənni deyildi, həm də ləyaqətli şəxsiyyət idi. Bu günə kimi Xan əmi haqqında kimdənsə mənfi söz eşitməmişəm. Xan əminin səhnəyə gəlişi, elə bir ağız oxumağı bizim xalq üçün bəs idi. Çünki o korifeydi."

**Elmira Rəhimova,**
*Xalq artisti*

***

"Mən 20-ci əsrdə Xan əminin oxu tablosunu Səməd Vurğun qədər əzizləyirəm. Səməd Vurğun şeirdə, Xan əmi ifada novatorluq edib. Xan əmin üslubunu qoruyan bir ifaçı kimi mən bunu tam məsuliyyətimlə deyirəm: Xan əminin səsindən, oxu modelindən hamı bəhrələnib. Onun oxuduğu "Simayi-Şəms", "Heyratı", "Arazbarı", "Qarabağ şikəstəsi" hamı üçün örnək olası qəbul olunmuş modeldir. Xan əminin oxuduğu "Qaçaq Nəbi"də Nəbinin rəsmi çəkilib. İgidlik, sərkərdəlik rəmzidir bu. Məh buna görə Xan əminin ifasında, ifaçılıq dəsti-xəttindəki konkretlik bizə örnək olmuşdur."

**Canəli Əkbərov,**
*Xalq artisti*

***

“Xan səsi, sənəti və görkəmi ilə mənim üçün əlçatmaz zirvə idi. O, sağlığında nağıllaşmış, əfsanələşmiş, abidələşmişdi. Bakıda Qız qalası, Şirvanşahlar sarayı dəyişməz olduğu kimi Xan Şuşinski də elə dəyişməz qala idi. O, ümumxalq məhəbbəti qazanmışdı. Bunun ilk səbəbi onun misilsiz səsi, böyük sənəti, sənətkarlığı, ikinci səbəbi yüksək ədəb-ərkan, mədəniyyət sahibi olması idi. Səsi, sənəti Allahın lütfü ilə qazanmışdır. Allah seçimində səhv etmir, necə ki, Peyğəmbərimizi seçib, eləcə də böyük, ulu sənətkarımızı seçib. Bu qəbildən qüsursuz bir səsi pak adama - Xana vermişdir.”

**Telman Xurşudoğlu Əliyev,**
*Texnika elmləri doktoru, akademik*

***

“Xəyalımda, ruhumda bir Xan yaşayır. Çox az gün olar ki, ona qulaq asıb baldan şirin səsini qətrə-qətrə ruhuma hopdurmayım. Mənə o səs qədər doğma, o səs qədər əziz, lal duyğularımı onun qədər həssas ifadə eləyən başqa heçnə yoxdur. Köksümdə Xanın səsilə dolu muğam adlı böyük bir dünya var və mən o dünyanın sonu görünməyən ağappaq cığırıyla üz tutub gedirəm. Bu cığırla hələ nə qədər yol gedəcəyimi bilmirəm. Bircə onu bilirəm ki, o məni şəfqətə, məhəbbətə, ucalığa aparır.

Zamanında Xanla bağlı kiminlə söhbət etdimsə, ancaq xoş sözlər eşitdim, heyranlıq duydum. Onun haqqında xatirə söyləyənlərin hamısı bir birindən xəbərsiz: “O bu dünyaya Xan gəldi, Xan da getdi” dedilər. Bu sadə kəlmələr qədər Xan Şuşinskini xarakterizə edən ikinci bir ifadə yoxdur. Çünki dünyaya xan kimi gəlib dünyadan xan kimi köçmək hər kişinin işi deyil. Gözəl səsin də olar, şan-şöhrət sahibi də ola bilərsən amma şəxsiyyətin qüsurlu, adamlığın yavandırsa, heç zaman el-oba məhəbbəti qazana bilməyəcəksən. Dünyaya nə qədər xanlar gəlib-gedib, amma onların heç biri Xan qədər sevilməyib. Adı el





yanında Xan qədər uca tutulmayıb. Çünki Xan Şuşinski digər xanlardan fərqli olaraq, şəhərlər, qalalar tutmayıb, insan ömrünə qıymayıb. O öz səsilə milyonlarla insanın könlünü fəth edib.”

**Mustafa Çəmənli,**
*Əməkdar mədəniyyət işçisi, nasir, publisist*

***

“Xan səsinə millətin sərvəti kimi baxdığından həmişə bu avazın üstündə əsirdi. Cavan xanəndələrə də tövsiyə edirdi ki, həmişə səsinizi qoruyun. Dilinə soyuq su vurmazdı, amma Şuşanın bulaq suyundan nə qədər desən içərdi və təsdiqləyərdi ki, Allahın soyutduğu bu suyun nə boğaza, nə sinəyə heç bir zərəri yetməz ki, faydası var.

Istər Bakıya birdəfəlik köçüb gəldiyi cavanlıq vaxtlarında, istər Azərbaycanın dörd bucağında tez-tez toylara dəvət edildiyi, radioda, televiziyadakı çıxışları ucbatından vaxtının çox qıt olduğu sonrakı illərdə, istərsə də yaşlanıb kövrəkləşdiyi çağlarda Şuşa həmişə onu çəkirdi. Xan Şuşaya çox borclu idi, Xanı Xan edən Şuşanın havası, suyu, göyçəkliyi olmuşdur.

Xanın “O olmasın, bu olsun”dakı qısaca “Şahnaz”ı muğam tariximizin, ifaçılıq sənətimizin ən misilsiz incilərindəndir. Bu filmə saysız dəfə baxıb doymadığımız kimi, Xanın oradakı zəngulələrinə də hər dəfə yenidən vurulmamaq mümkün deyil.”

**Rafael Hüseynov,**
*Akademik, filologiya elmləri doktoru*

***

“Sənət gülüstanımızın qocaman bülbülüdür Xan!

***

Xanın nəinki oxumağı, boy-buxunu, yerişi də bir aləm idi. O, Qarabağın bütün gözəlliklərini səsinə hopdurmuşdu.”

**Əbülfət Əliyev,**
*Xalq artisti*

***

“Xanın xalq arasında böyük müvəffəqiyyət qazanmasına səbəb onun yalnız geniş səs diapazonuna malik olması deyil, eyni zamanda Azərbaycan klassik musiqi və mahnı mədəniyyəti ilə geniş xalq kütlələrini tanış etməsidir. O, xalq xanəndəliyini yüksək sənət dərəcəsinə çatdırmışdır.

Əgər Qaryağdıoğlu xanəndəlik sənəti tarixində “Orta mahur”un misilsiz ifaçısı olmuşsa, Xan Şuşinski “Mahur-hindi” ustası kimi ad-san qazanmışdır. Xan muğamın bir şöbəsindən digərinə keçəndə bülbül kimi cəh-cəh vurmaqla öz məlahətli səsilə hamını heyran edirdi.

Hər dəfə Xanın səsini eşidərkən Qarabağın 30-cu illərinin insanı vəcdə gətirən şən məclisləri, toy-düyünləri yada düşür. O zaman toylar çox mənalı keçərdi. İndi çox təəssüf edirəm ki, nə Xanın ifası, nə də Abutalıbın çalması var.”

**Firudin Şuşinski,**
*Əməkdar incəsənt xadimi*

“Xanın oxuduğu “Qarabağ şikəstəsi” səsdə Qarabağ möcüzəsi idi. Hələ mən Qarabağ deyilən məkanı görməmişdim, amma bu səsdəki sehr yaddaşımda əbədi bir Qarabağ obrazı yaratmışdı...”

**Vaqif Yusifli,**
*Əməkdar mədəniyyət işçisi,*
*Filologiya elmləri doktoru*

***

“Azərbaycan SSR Xalq artisti Xan Şuşinski muğam dünyamızın kəhkəşanında parlaq işıq saçan ulduzlardan biri idi. Onun sənəti və şəxsiyyəti alimlərimizin, xüsusən musiqişünaslarımızın tədqiqat obyekti olmağa çoxdan layiqdir.

Çox gözəl demişlər ki, şair, alim, bəstəkar, müğənni olmaya





da bilərsən, lakin vətəndaş olmağa borclusan. Xoşbəxtlikdən Xan həm böyük sənətkar, həm də böyük vətəndaş idi.”

**Cahid Quliyev,**
*Fəlsəfə elmləri doktoru, professor*

***

“Xan Şuşinskinin sənəti ölməzdir, əbədidir. Nə qədər ki, muğamlarımız, təsnif və xalq mahnılarımız yaşayır, bu böyük sənətkar da yaşayacaqdır. Xan Şuşinskinin adı musiqi tariximizin salnaməsinə qızıl hərflərlə yazılmışdır.”

**Yaqut Abdullayeva,**
*Əməkdar artist*

## Xan Şuşinskiyə həsr olunmuş şeirlər

### Xan Şuşinskiyə

Ey könül! Min namə yaz bir gülüzarın eşqinə,
Can evindən seyrə çıx bir xoş gülzarın eşqinə!

Hansı rəssamın əlilə canlanır dünya evi?
Hər çəmən min qönçə açmış növbaharın eşqinə!

Gəl, gəl, ey sevdalı bülbül, gəl gəzək gülşənləri,
Sən gülün eşqilə dilən, mən də yarın eşqinə!

Məcnun öz şurilə çox da aləmə səs salmasın,
Hansı namərd can əsirgər bir nigarın eşqinə?

Gün keçir, dövran keçir... Öz hökmünü vermiş zaman,
Ney tutulsun, badə gəlsin ruzigarın eşqinə!

İnsan oğlu can verər pərvanə tək atəşlərə,
Düz sözün, düz ilqarın, düz etibarın eşqinə!

Vurğunun öz aləmi, öz qəlbi, öz ilhamı var,
Mehri-ülfətdən yaranmış bir diyarın eşqinə!





### “Azərbaycan”
### (Şeirdən bir hissə)

Könlüm keçir Qarabağdan,
Gah bu dağdan, gah o dağdan;
Axşamüstü qoy uzaqdan
Havalansın Xanın səsi,
Qarabağın şikəstəsi!

Gözəl Vətən! Mənan dərin,
Beşiyisən gözəllərin.
Aşıq deyər sərin-sərin,
Sən günəşin qucağısan,
Şeir, sənət ocağısan!

**Səməd Vurğun,**
*Xalq şairi*

***

### Xanın səsi

Bir yolla axışan səslər bir deyil,
Dünyada meh, külək tufan səsi var.
Naşı uşağa da çoxdan sirr deyil,
Dünyada bulaq, çay,ümman səsi var.

Tacir çanaq-çanaq dürr quylayanda,
Xanəndə özünü səsiylə öyüb.
Dövran neçə-neçə səs paylayanda,
Xanın qapısını zil səslə döyüb.

Xan lovğalanmayıb bəs aləmində?
Yox! Yox! O, nə məğrur, nə lovğa olub.
Oxuya-oxuya səs aləmində,
Ümman dönəcək bir dalğa olub.

Xanın kürəyini tufan döyəndə,
Ürəyi ilhamla isidilibdir.
Özü Şuşamızda nəğmə deyəndə,
Səsi Bakımızda eşidilibdir.

O, sonra Bakıda nadir səsiylə,
Gah muğam oxuyub, gah da ki, şərqi.
Bahar şimşəyindən qadir səsiylə,
Ölüm yuxusundan oyadıb şərqi.

Gah olan sənətlə vədələşibdir,
Onu qorumaqçün kipriklәşibdir.
Haçan danışıbdır, sadələşibdir,
Haçan oxuyubdur, müdrikləşibdir.

**Əli Tudə,**
*Şair*

***

Xan çox yeri görübdür,
Xan çox yeri gəzibdir.
Səsini muncuq kimi
Çəmənlərə düzübdür.
Gəzib Mili, Muğanı,
Gəzib Azərbaycanı.
Xoş səsi zənguləsi,
Bürüyübdür hər yanı.
Yenə Şuşaya gəlib,
Xan Şuşada oxuyur.
Köksündə nəğmə olur,
Bu yerlərin havası.
Ən böyük səhnəsidir,
Uca Şuşa qalası.

**Ramiz Heydər,**
*Şair-dramaturq*





***

**Sən oxu**

Sən oxu, səsini eşitsin ellər,
Ləhcənə vurğunam, inan, Xan əmi.
Sənət beşiyidir bu ana torpaq,
Fərəhlə ömr edir, insan, Xan əmi.

Sənin də ömrünə sevinc pay düşüb,
Göylərin payına ulduz, ay düşüb,
Elə bil çöllərə kələğay düşüb,
Uca zirvələrdə duman, Xan əmi.

Duyan ürəklərin iftixarısan,
Seyidin, Cabbarın yadigarısan.
Xalqımın sevimli sənətkarısan,
Dünya qədər bəxtiyarsan, Xan əmi.

**Şəmsiyyə Həsənzadə,**
*Şairə*

***

Gözəl Qarabağa onda get ki, sən
Yaşıl yamaclarda yüz canan olsun.
İsa bulağında, Cıdır düzündə
Səsi dağ çeşməsi dostum Xan olsun.
Çal-çağır başlasın, süfrə açılsın,
Əlvan çəmənlərdə canhacan olsun.
Qulaq as Qarabağ şikəstəsinə,
Xəyalının yeri asiman olsun.
İlk bahar çağında səni cəzb edən
Mənim bu yazdığım gülüstan olsun.
Xəbərin yoxdursa cənnət diyardan,
Sənə yol göstərən bu dastan olsun.

Onun qəhrəmanı iftixarımız
Xan qızı, şairə Natəvan olsun.

**Məmməd Rahim,**
*Xalq şairi*

***

**Sevgilim**
*(şeirdən bir parça)*

Oxusun elimin zəfər nəğməsi,
Vahidin qəzəli, Xanın xoş səsi.
Yenə də bəzəsin bizim məclisi,
Şərbət bir tərəfdən, çay bir tərəfdən.

**Əliağa Vahid,**
*Şair*

***

Şişənin saysam əgər minlər ilə bülbülü var,
Musiqi gülşəninin türfə açılmış gülü var.
Var iki bülbülümüz: Xan, birisi Bülbüldür,
Hər biri ölkəmizə gül, həmi də bülbüldür.

**Mirzə Xosrov Axundov,**
*Şair*

***

**Heyrət**

Bir heyrət bürüyüb məni bu yerdə,
Dolmuş izdihamla Fəxri xiyaban
Tabutu çiyində, səsi efirdə
Susan da Xan idi,
Oxuyan da Xan...

**Nəriman Həsənzadə,**
*Xalq şairi, Heydər Əliyev mükafatı laureatı*





***

**Xan nəvəsi-Şuşalı Xan!**
*(ixtisarla)*

Ustad yaşın 110 oldu
Nə başlanğıc, nə son oldu.
Ömür payın don-don oldu.
Unudulmaz belə insan,
Xan nəvəsi-Şuşalı Xan!
Ad qoydular-İsfəndiyar,
İslam səni "Xan" haylayar.
Səsin gəzdi diyar-diyar
Sevdi səni bütün cahan,
Xan nəvəsi-Şuşalı Xan!
Bir Xan yetişdi Təbrizdə,
Doğuldu bir Xan da bizdə.
Xan ilə Xan üzbəüzdə
çaldı "Bayatı-İsfahan",
Xan nəvəsi-Şuşalı Xan!

**Fəxrəddin Meydanlı,**
*Şair*

***

Vaqifi coşdurub min həvəs verdin,
İslama, Bülbülə, Xana səs verdin,
Neçə xanəndəyə xoş nəfəs verdin,
İlham mənbəyisən duyana, Şuşa.

**Mustafa Fətəliyev,**
*Şair*

***

Dağların başında məskən salıbdır,
Səsi tutub asimanı Şuşanın.

Min il keçsə ürəklərdə qalacaq,
Cabbarı, Qurbanı, Xanı Şuşanın.

**Həbib Məmmədov,**
*Şair*

***

**Oxuyur Xan**
*(ixtisarla)*

Azərbaycan muğamları
Bu torpağın
Nəğmə dili, söz dilidir,
Bu bəstəkar, bu nəğməkar
Elimizin dünyamızı
Heyran edən gözəlidir.
Elə dünya gözəli ki,
Heç yanda yox bərabəri,
Anası el məhəbbəti,
Atası el dühasıdır,
Bu gözələ həsrət qalsam
Qəlb ot tutub yanasıdır.
Şux qamət "Rast"dır onun,
"Heyratı"dır həyəcanı,
Hissləri "Çahargah"dır
Əlinin hənası "Mani".
"Zabul"la "Şur" hörükləri,
"Şüştər" nişan üzüyüdür,
"Bayatı"sı təsnifləri
Libasının bəzəyidir.
"şahnaz" vüsal sevincidir,
"bayatı-kürd" dərdi-qəmi.
Bir məhəbbət dastanı var
"Şiraz bayatı"sı kimi.





"Mahur" çeşmə gözlərinin
Qüdrət çəkən zil sürməsi,
Yanağının inci xalı
Onun "Kəsmə Şikəstə"si.

**Şahlar Baba,**
*Şair*

***

**"Segah", "Şikəstə" ilə döyünən ürək**

Dedilər Xan köçdü bu gün dünyadan,
Başı qar yataqlı məğrur dağ köçdü.
Mən onda görürdüm eli-obanı,
Gözümdə nəğməli Qarabağ köçdü!

Susdu xalqı ilə öyünən ürək,
Çahargah üstündə döyünən ürək,
Muğamla dillənib, hey dinən ürək,
Bülbülü kirimiş güllü bağ köçdü.

Qıydı qoca dünya Xan bülbülünə,
Şöhrət bülbülünə, şan bülbülünə.
Yan vətən oğluna, yan bülbülünə,
Nəğməli yurdumdan təmtəraq köçdü.

Dəfn etdik torpağa böyük sənəti,
Cahana sığmayan şanı-şöhrəti,
Bu kədər, ayrılıq əydi Şövkəti,
Dərdli sinəsinə çarpaz dağ köçdü.

**Şövkət Məmmədova,**
*SSRİ Xalq artisti*

***

**Xan Şuşinski**

Göy üzünün, qeyb aləminin
eşqinin səsidi, zümzüməsidi muğam...
göy üzünün qəlbindən gəlir muğam.
muğamlardan doğulmuşdu
muğamın Xanı,
qəlbimizin dünyasının ədəbi, ərkanı
Xan Şuşalı adlı
bir insanlıq mizanı
muğamdı nizam verən
onun əməllərinə, ömrünə.
muğamdan doğulurdu
qüruru, duruşu, yerişi, sözü.
qəlbi muğamlara
göy üzünə köklənmişdi
göy üzünün diliylə danışırdı
danışdığı yerdə hərdən
qəlbini alıb aparan
muğamlara qarışırdı...
əlinə qaval alıb
muğam oxuyanda, qavala axırdı
qəlbinin döyüntüsü
dünyanın qəlbindən axırdı
hər kəlməsi,
Qarabağ şikəstəsi.

**Əhməd Qəşəmoğlu,**
*Şair*





***

**Xan oxuyanda**

Bir məsəl yaranıb el arasında,
Oxunur hər yerdə dil arasında,
Deyirlər bülbüllə gül arasında
Məhəbbət yaranır Xan oxuyanda.

Böyük arzularla yaşayır insan,
Ayrıla bilməyir öz dünyasından.
Şairin sevdiyi söz dünyasından
Şeiriyyət yaranır Xan oxuyanda.

Xalqımız doymayıb Xanın səsindən,
Ürəyə od salan zənguləsindən,
Tar ilə kamanın tərənəsindən
Ülviyyət yaranır Xan oxuyanda.

**Səbahəddin Rüstəmov,**
*Şair*

***

**Qarabağ**

Vaqiflə durub qoşa,
Hər yanı bir tamaşa.
Nəğməsən başdan-başa,
Şirin sözüm Qarabağ.

Ucalsın Xanın səsi,
Bülbülün xoş nəğməsi.
Alışsın dağ laləsi,
Odum, közüm Qarabağ

**Zivər Ağayeva,**
*Şairə*

***

Musiqi məskəninin həm zilisən, həm bəmisən,
Şaqraq səsin havalandı-təranələr aləmisən!

Nəfəsin naləsidir uzaq-uzaq əsrlərin,
Sən incə ürəklərin həm kədəri, həm dəmisən.

Ruhuma qanad verir həzin “Rast”ın, şirin “Şur”un,
Qarabağ çöllərinin bülbülüsən, şəbnəmisən.

Cabbarın zənguləsi rübabında daim yaşar,
Könlümün iftixarı, şeir-sənət həmdəmisən.

Muğamat bağçasının mahir olan bağbanısan,
Məhsulu tükənməyən tər sünbüllü bir zəmisən.

Neçə xanəndənin ustadı oldun, a kişi,
Qəlbim riqqətlə vurar, sən Seyidin görkəmisən.

Sən oxu mən eşidim, ilhamım tüğyan eləsin,
Şair könüllərin dərmanısan, məlhəmisən.

Bəzi təqlidçilərin zövqünə rişğənd edirəm
Onlara gülənlərin ən böyüyü, möhkəmisən.

Sadiqin arzusudur - gəl Şuşaya mehman kimi,
Cavansan, incimə, lakin həmişə Xan əmisən.

**İsrafil Əbilov (Sadiq),**
*Şair*





***

Ay uçan durna, bir xəbər gətir,
Tarixlər şahidi Cıdır düzündən.
Sarı babamdan, Bağırqanımdan,
Xəzinə qayanın məğrurluğundan.

De ki, nərə çək göylərə, yaralı bülbül,
Koroğlu harayı qalxsın səmaya.
Köksün qan olsa da, şair Natavan,
Haray sal ellərə, dağlar gözəli.

Üzeyir sinəsi güllələnibdir,
Cabbarın naləsi ərşə qalxıbdır
Xan əmi dumana, çənə düşübdür,
Nəvvab, Seyid sənəti dona düşübdür.

**İlduzə Bəykişiqızı**
*Şairə*

# I HİSSƏ

## 1. ƏSƏRLƏRİ

### 1.1. Azərbaycan Milli Kitabxanasında qorunub saxlanılan Xan Şuşinskinin ifa etdiyi əsərlərin səsyazmaları

**1. Mahur:** [muğam] / ifa ed.: Xan Şuşinski; A. Quliyevin başçılığı ilə Xalq Çalğı Alətləri Ansamblı. – Qramval №1715.

**2. Segah;** Çoban bayatı; Xaric segah / ifa ed.: Xan Şuşinski; Hacı Məmmədov-tar. – Qramval №1715.

**3. Şur:** [Azərbaycan klassik musiqisi söz. Məmməd Rahim] / ifa ed.: Xan Şuşinski; Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №120.

**4. Şur;** Sarənc: [Azərbaycan klassik musiqisi söz. Füzuli] / ifa ed.: Xan Şuşinski; Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №120.

**5. Qara tellər:** [xalq mahnısı] / ifa ed.: Xan Şuşinski; Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №00012589

**6. Azərbaycan muğamları və musiqisi:** Bağda sarmaşıq, Bəstənigar təsnifi, Ay qəşəng ceyran, Yaxan düyməl /ifa ed.: Xan Şuşinski; Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №512.

**7. Orta Mahur muğamı, Bilmədin** / ifa ed.: Xan Şuşinski; mus.: S. Rüstəmov; söz.: Ə. Səfərli; Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №512.

**2005**

**8. Şur; Şahnaz; Rast** / ifa ed.: Xan Şuşinski: [Elektron resurs] // Qarabağ xanəndələri. – Bakı, 2005. – 24 elektron. opt. disk. – CD № 8.





**2013**

**9. Rast (1954)** / ifa ed.: Xan Şuşinski; ATR Xalq Çalğı Alətləri Orkestri; S. Rüstəmov-dirijor; A. Cavanşirov-tar; H. Mirzəliyev-kamança // Qarabağ xanəndələri (kişilər): CD№8: I albom. – 2013. – 25:18 dəqiqə.

**10. Şahnaz (1956)** / ifa ed.: Xan Şuşinski; A. Cavanşirov-tar, H. Mirzəliyev-kamança // Azərbaycan xanəndələri (kişilər): I albom. – 2013. – 5:49 dəqiqə.

**11. Şahnaz (1956)** / ifa ed.: Xan Şuşinski; A. Cavanşirov-tar; H. Mirzəliyev-kamança // Qarabağ xanəndələri (kişilər): CD№8: I albom. – 2013. – 5:49 dəqiqə.

**12. Şur (1958) /** ifa ed.: Xan Şuşinski: ATR Xalq Çalğı Alətləri Orkestri; S. Rüstəmov-dirijor:; A. Cavanşirov-tar, H. Mirzəliyev-kamança // Qarabağ xanəndələri (kişilər): CD№8: I albom. – 2013. – 25:44 dəqiqə.

**13. Şur (1958)** /ifa ed.: Xan Şuşinski; ATR Xalq Çalğı Alətləri Orkestri; S. Rüstəmov-dirijor; A. Cavanşirov-tar; H. Mirzəliyev-kamança // Azərbaycan xanəndələri (kişilər): I albom. – 2013. – 25:44 dəqiqə.

**2015**

**14. Mahur-Hindi (1950)** /ifa ed.: Xan Şuşinski; A. Cavanşirov-tar, H. Mirzəliyev-kamança // Azərbaycan xanəndələri (kişilər): IV albom. – 2015. – 17:06 dəqiqə.

**15. Orta Mahur (1950)** /ifa ed.: Xan Şuşinski; A. Cavanşirov-tar; H. Mirzəliyev-kamança // Azərbaycan xanəndələri (kişilər): IV albom. – 2015. – 09:23 dəqiqə.

**16. Rast (1954)** /ifa ed.: Xan Şuşinski**;** A. Cavanşirov-tar; H. Mirzəliyev-kamança // Azərbaycan xanəndələri (kişilər): I albom. – 2015. –25:18 dəqiqə.

**17. Şahnaz (1956)** /ifa ed.: Xan Şuşinski**;** A. Cavanşirov-tar; H. Mirzəliyev-kamança // Azərbaycan xanəndələri (kişilər): I albom. – 2015. – 5:49 dəqiqə.

**18. Şur (1958)** / ifa ed.: Xan Şuşinski; ATR Xalq Çalğı Alətləri Orkestri; S. Rüstəmov-dirijor; A. Cavanşirov-tar; H. Mirzəliyev-kamança // Azərbaycan xanəndələri (kişilər): I albom. – 2015. – 25:44 dəqiqə.

**19. Zabul-Segah (1950)** / ifa ed.: Xan Şuşinski; A. Cavanşirov-tar; H. Mirzəliyev-kamança // Azərbaycan xanəndələri (kişilər): IV albom. – 2015. – 23:47 dəqiqə.

## 1.2.Azərbaycan Respublikasının Dövlət Səs Yazıları Arxivi

### 1.2.1.Qramvallar

**20. Ay gözəl** (1953): [xalq mahnısı] / ifa ed.: Xan Şuşinski, Şövkət Ələkbərova; müş. ed.: Əlağa Quliyevin rəhbərliyi ilə Azərbaycan radiosunun instrumental ansamblı. – Qramval №21915-16. – Arxiv № 3.

**21. Bəstənigar təsnifi** (1956), **Ay qəşəng ceyran** (1960): [xalq mahnıları] / ifa ed.: Xan Şuşinski; müş.ed.: Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №34699-34700. – Arxiv №577.

**22. Dedim bir busə ver, Yaxan düymələ** (1960): [xalq mahnıları] / ifa ed.: Xan Şuşinski; müş.ed.: Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №34689-90. – Arxiv № 1017.

**23. Heyratı** (1953) / ifa ed.: Xan Şuşinski; müş.ed.: Əlağa Quliyevin rəhbərliyi ilə instrumental ansambl. – Qramval №21927. – Arxiv №973.

**24. Kürdü-Şahnaz** (1954) : [muğamdan bir parça] / ifa ed.: Xan Şuşinski; müş.ed.: tar, kamança. – Qramval №23295-96. – Arxiv №106.

**25. Qara tellər** (1945): [xalq mahnısı] / ifa ed.: Xan Şuşinski. – Qramval №00012589-90. – Arxiv №105.

**26. Qarabağ şikəstəsi** (1946): söz.: Səməd Vurğun; mus.: Xan Şuşinski / if.ed.: Xan Şuşinski; müş. ed.: Xalq Çalğı Alətləri ansamblı. – Qramval №13621-13651. – Arxiv №103.





**27. Qara tellər** (1960): [xalq mahnısı] / ifa ed.: Xan Şuşinski. – Qramval №12589-90. – Arxiv №1433.

**28. Qızıl gül** (1951): mus.: Soltan Hacıbəyov / ifa ed.: Xan Şuşinski, Şövkət Ələkbərova. – Qramval №20719. – Arxiv №808.

**29. Qızıl gül** (1952): mus.: Soltan Hacıbəyov; söz.: Məhərrəm Əlizadə / ifa ed.: Xan Şuşinski, Şövkət Ələkbərova; müş. ed.: Əlağa Quliyevin rəhbərliyi ilə instrumental Xalq Çalğı Alətləri ansamblı. – Qramval №21679-80. – Arxiv № 17.

**30. Mahur muğamı** (1945) / ifa ed.: Xan Şuşinski; müş.ed.: Əlağa Quliyevin rəhbərlik etdiyi instrumental ansambl. – Qramval №12085-86. – Arxiv №748.

**31. Mahur muğamı, Qarabağ şikəstəsi** (1946): söz.: Səməd Vurğun / ifa ed.: Xan Şuşinski; müş.ed.: Xalq Çalğı Alətləri üçlüyü; tarda Hacı Məmmədov. – Qramval №13616-13621. – Arxiv №1895.

**32. Mirzə Hüseyn Segahı** (1946): söz.: M. Rahim / ifa ed.: Xan Şuşinski; müş. ed.: Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №13619-20. – Arxiv №113.

**33. Naz-naz, Qara qız** (1954) / ifa ed.: Xan Şuşinski; müş. ed.: tar, kamança. – Qramval №23428-29. – Arxiv №104.

**34. Nə halətdir; Girdim yarın baxçasına** (1954): [xalq mahnıları] / ifa ed.: dəfdə Xan Şuşinski; müş.ed.: Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №21484-85. – Arxiv №111.

**35. Orta Mahur muğamı:** söz.: Səid Rüstəmov; Bilmədim: söz.: İslam Səfərli; Bağda sarmaşıq: söz.: Məmməd Rahim; Bəstənigar təsnifi, Ay qəşəng ceyran, Yaxan düymələ, Dedim bir busə ver (1961) / ifa ed.: Xan Şuşinski; müş.ed.: Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №6389-90. – Arxiv №643.

**36. Rast** (1946): “Əraq” şöbəsi: söz.: Əlağa Vahid; Şikəsteyi fars: söz.: Məmməd Rahim / ifa ed.: Xan Şuşinski; müş.ed.: Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №13612-13. – Arxiv №108.

**37. Rast** (1946): "Uzlar" şöbəsi: söz.: Məmməd Rahim, "Pəncgah" şöbəsi: söz.: Süleyman Rüstəm / ifa ed.: Xan Şuşinski; müş.ed.: üçlük. – Qramval №13614-15. – Arxiv №107.

**38. Rast, Vilayəti** (1946): söz.: Ə. Vahid; Maye rast: söz.: Füzuli / ifa ed.: Xan Şuşinski; müş.ed.: Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №13610-11. – Arxiv №112

**39. Şur, Maye** (1946): söz.: Süleyman Rüstəm; Şikəsteyi fars: söz.: M.P.Vaqif / ifa ed.: Xan Şuşinski; müş.ed.: Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №13632-33. – Arxiv № 109.

**40. Şur, Maye Şur** (1946): söz Füzuli, Şur Şahnaz: söz Səməd Vurğun / ifa ed.: Xan Şuşinski; müş.ed.: Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №13630-31. – Arxiv № 110.

**41. Şur, Maye Şur, Şur Sarənc** (1946): söz.: M. Füzuli / ifa ed.: Xan Şuşinski; müş.ed.: Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №13630-35. – Arxiv №312.

**42. Şur, Simayi-Şəms:** söz.: Məmməd Rahim; Şur Sarənc: söz.: Füzuli (1946) / ifa ed.: Xan Şuşinski; müş.ed.: Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №13634-35. – Arxiv №1896.

**43. Şur, Şur Şahnaz:** söz.: Məmməd Rahim / ifa ed.: Xan Şuşinski; müş.ed.: Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №13631-1364. – Arxiv №1895.

**44. Yaylığım** (1952): [xalq mahnısı] / ifa ed.: Xan Şuşinski, Şövkət Ələkbərova; müş. ed.: Əlağa Quliyevin rəhbərliyi instrumental ansambl. – Qramval №21557-58. – Arxiv № 14.

### 1.2.2.CD-lər

**45.** 1.**Mahur muğamı; 2. Mirzə Hüseyn Segahı; 3.Şahnaz muğamı; 4. Şur; 5.Rast muğamı; 6. Orta Mahur, 7.Qarabağ şikəstəsi** / ifa ed.: Xan Şuşinski; müş.ed.: tar və kamança // CD. – 2001. – Arxiv № 29.

**46. Şuşanın dağları, Süsən sünbül, Qarabağ şikəstəsi, Heyratı, Naz-naz** / ifa ed.: Xan Şuşinski: ["Axşam görüşləri"





radioveriliş: Xalq artisti Canəli Əkbərov Xan Şuşinski haqqında xatirələrini danışır] // CD. – Arxiv № 47.

### 1.2.3.Maqnitafon lent yazıları

**47. Naz-naz:** [xalq mahnısı] / ifa ed.: Xan Şuşinski; müş.ed.: Xalq Çalğı Alətləri üçlüyü.

**48. Rast muğamı** / ifa ed.: Xan Şuşinski, Hacıbaba Hüseynov, Bakir Həşimov. – 10.02.1976. – 25:20 dəqiqə – Arxiv № 3048.

**49. Segah muğamı** / ifa ed.: Xan Şuşinski; müş.ed.: Əlağa Quliyevin rəhbərliyi ilə Xalq Çalğı Alətləri ansamblı. – 28.02.59. – 13:40 dəqiqə

**50. Heyratı muğamı /** ifa ed.: Xan Şuşinski, müş. ed.: Əfrasiyab Bədəlbəylinin rəhbərlik etdiyi instrumental ansambl. – 12.10.59. – 03:38 dəqiqə – Arxiv № 4837.

**51. Ay qəşəng ceyran:** [xalq mahnısı] / ifa ed.: Xan Şuşinski, müş. ed.: üçlük. – 05.04.60. – 03:13 dəqiqə – Arxiv № 4838.

**52. Heyratı /** ifa ed.: Xan Şuşinski, müş. ed.: instrumental ansambl. – 1959. – 06:20 dəqiqə – Arxiv № 4839.

**53. Səslər muzeyi** (radiojurnal): [Xanəndələrin ifaçılığı haqqında Xan Şuşinskinin fikirləri] / müəllif İntiqam Mehdiyev. – 28.12.1979. – Arxiv № 5220.

### 1.2.4.Radio verilişləri

**54. Xan Şuşinskinin anadan olmasının** 70 illiyinə həsr edilmiş təntənəli gecə: çıxış edirlər: Əfrasiyab Bədəlbəyli, Ramiz Heydər, Vasif Adıgözəlov, Nəriman Həsənzadə və başqaları. Gecənin bədii hissəsində iştirak edirlər: Əbülfət Əliyev, Sərvər İbrahimov, Hacı Məmmədov, Yaqub Məmmədov, Sara Qədimova və Xan Şuşinski; müş. ed.: "Azərbaycan təranələri" Xalq Çalğı Alətləri ansamblı; bədii rəh.: Ağası Məşədibəyov. 30.12.1971. – 1:43:25 dəqiqə – Arxiv № 1535.

**55. Muğam:** [musiqili radioverilişi]: iştirak edirlər: əməkdar artist: Soltan Nəcəfov, Xalq artisti: Xan Şuşinski, Hacıbaba Hüseynov və b. // Verilişin müəllifi Arif Məmmədov və jurnalist Möhbəddin Səmədov; aparıcı Aydın Qaradağlı. – 28.02.76. – 55:00 dəqiqə.

**56. Heyratı ritmik muğamı, İrəvanda xal qalmadı, Şuşanın dağları, Qaçaq Nəbi:** [Azərbaycan Xalq artisti Xan Şuşinskiyə həsr olunmuş konsert-oçerk] / ifa ed.: Xan Şuşinski; müş.ed.: instrumental ansambl. – 18.09.76. – 56:10 dəqiqə.

**57. "Alma-almaya bənzər" xalq mahnısı:** [Azərbaycan Xalq artisti Xan Şuşinskiyə həsr olunmuş konsert-oçerk] / ifa ed.: Xan Şuşinski; müş.ed.: instrumental ansambl // Verilişin müəllifi: Rafael Hüseynov. – 09.12.1976. – 40:00 dəqiqə.

**58. Xan Şuşinskinin xatirələri**: [Xanəndə İslam Abdullayev haqqında]. – 03.06.78. – 02:00 dəqiqə.

**59. Nəğməli ömürlər**: [radioveriliş]: Ay qız kimin qızısan / ifa ed.: Xan Şuşinski; müş.ed.: instrumental ansambl. – 01.07.78. – 02:00 dəqiqə. – Arxiv № 4235

**60. Nəğməli ömürlər**: [radioveriliş]: Respublikanın Xalq artisti Xan Şuşinski ilə müsahibə: [veriliş X. Şuşinskinin 77 illiyinə həsr olunmuşdur] // müsahibəni apardı: Rafael Hüseynov. – 17.08.78. – 25:00 dəqiqə. – Arxiv № 4349.

**61. Muğam**: [muğam ifaçılığına həsr olunmuş radiojurnal] / iştirak edirlər: Xan Şuşinski, Bəhram Mənsurov, Hacıbaba Hüseynov, Mütəllim Mütəllimov, Soltan Nəcəfov, İslam Rzayev və b. – 24.01.79. – 06:00 dəqiqə. – Arxiv № 4349.

**62. Nəğməli ömürlər**: [radioveriliş]: "Bəh-bəh" xalq mahnısı / ifa ed.: Xan Şuşinski // verilişin müəllifi Rafael Hüseynov. – 13.03.79. – 02:00 dəqiqə. – Arxiv № 4444.

**63. İslam Abdullayev haqqında xatirələr,** Heyratı muğamı / ifa ed.: Xan Şuşinski. – 28.08.79. – 08:00 dəqiqə. – Arxiv № 4623.

**64. Muğam:** [Segah muğamı haqqında sənətkarların fikirləri] / iştirak edirlər: Xalq artisti Xan Şuşinski, əməkdar artist Arif





Babayev, Soltan Nəcəfov, Ağabala Abdullayev, Rübabə Muradova. – 25.10.79. – 49:50. – Arxiv № 4681.

**65. İrəvanda xal qalmadı:** ["Xanəndəlik sənəti" radiojurnal] / ifa ed.: Xan Şuşinski, musiqisi və sözləri Cabbar Qaryağdıoğlu. – 1979. – 04:15. – Arxiv № 5301.

**66. Qarabağ şikəstəsi:** ["Şərq konsertləri" silsiləsindən radioveriliş] / ifa ed.: Xan Şuşinski, müş. ed.: instrumental ansambl. – 28.03.1981. – 06:00. – Arxiv № 5400.

**67. Heyratı:** ["Ötən illərin mahnıları" radioverilişi] / ifa ed.: Xan Şuşinski, verilişin müəllifi Mustafa Çəmənli, aparıcılar Züleyxa Hacıyeva, Ramiz Mustafayev. – 11.05.81. – 03:00. – Arxiv № 5446.

**68. Rast** / ifa ed.: Xan Şuşinski, müş. ed.: instrumental ansambl. – 1950. – 21:00. – Arxiv № 5487.

**69. Yaylıq:** ["1001 mahnı" radioverilişi] / ifa ed.: Xan Şuşinski, Şövkət Ələkbərova, müş. ed.: instrumental ansambl. – 14.11.81. – 05:00. – Arxiv № 5662.

**70. Xan Şuşinskinin Üzeyir Hacıbəyov haqqında xatirələri:** [SSRİ Xalq artisti, bəstəkar Üzeyir Hacıbəyova həsr olunmuş ədəbi musiqili veriliş]. – 1976. – 01:00. – Arxiv № 5978.

**71. Rast:** / ifa ed.: Xan Şuşinski. – 17.01.58, 27.01.83. – 23:15. – Arxiv № 6013.

**72. "Üzeyir Hacıbəyov xatirələrdə" musiqili kompozisiya:** [Xan Şuşinskinin xatirələri]. – 1976. – 01:00. – Arxiv № 6325.

**73. Qarabağ şikəstəsi, Şuşanın dağları, Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasından Məcnunun ariyası, Segah:** [görkəmli xanəndə Xan Şuşinski türk dinləyicilər üçün radioveriliş] / ifa ed.: Xan Şuşinski, 01.04.1964; 12.12.1983. – Arxiv № 6338.

**74. Qara tellər:** ["Axşam görüşləri" radioveriliş] / ifa ed.: Xan Şuşinski. – 29.01.84. – 07:00. – Arxiv № 6471.

**75. Kürdü-Şahnaz:** [Xan Şuşinskinin yaradıcılığına həsr olunmuş konsert oçerk] / ifa ed.: Xan Şuşinski. – 15.06.63; 18.12.83. – 06:00. – Arxiv № 6471.

**76. Xan Şuşinski:** ["Səslər muzeyi" radioverilişində sənətkar öz yaradıcılığından söz açır]. – 05.05.84. – 04:00. – Arxiv № 6523.

**77. Xan Şuşinskinin Üzeyir Hacıbəyov haqqında xatirələri:** ["Axşam görüşləri" radioverilişi]. – 10.06.84. – 01:00. – Arxiv № 6553.

**78. Qarabağ şikəstəsi:** [Xan Şuşinskinin yaradıcılığına həsr olunmuş konsert oçerk, radioveriliş] / ifa ed.: Xan Şuşinski, müş. ed.: instrumental ansambl. – 02.07.84. – 07:00. – Arxiv № 6556.

**79. Qara tellər:** [xalq mahnısı] / ifa ed.: Xan Şuşinski. – 22.10.84. – 05:30. – Arxiv. – №6622.

**80. Rast muğamı:** ["Axşam görüşləri" radioverilişi] / ifa ed.: Xan Şuşinski. – 18.11.84. – 06:00. – Arxiv №6722.

**81. Muğam:** ["Üzeyir Hacıbəyov musiqi barədə" radioveriliş] / ifa ed.: Xan Şuşinski. – 16.03.85. – 05:30. – Arxiv № 6752.

**82. Zabul muğamı** / ifa ed.: Xan Şuşinski, müş. ed.: Əlağa Quliyevin rəhbərlik etdiyi Xalq Çalğı Alətləri ansamblı. – 16.12.1961. – 16.00. – Arxiv № 6767.

**83. Bəstənigar təsnifi, Yaxan düymələ, Dedim bir busə ver, Aç xurcunu** / ifa ed.: Xan Şuşinski. – 12.05.67. – 13:15. – Arxiv № 6859.

**84. Heyratı:** [Azərbaycan Respublikasının Dövlət Səs Yazıları Arxivinin sənədləri əsasında hazırlanmış "Odlu illərin mahnıları", "Musiqi də döyüşürdü" radioverilişləri] / ifa ed.: Xan Şuşinski, müş. ed.: instrumental ansambl. – 31.03.85. – 06:00. – Arxiv № 6919.

**85. Ay qız kimin qızısan:** ["Axşam görüşləri": Xan Şuşinski haqqında radioveriliş] / ifa ed.: Xan Şuşinski. – 13.03.83. – 05:00. – Arxiv № 7061.

**86. Muğam:** söz.: Əlağa Vahid / ifa ed.: Xan Şuşinski. – 20.02.83. – 05:00. – Arxiv № 7061.

**87. Mahur dəsgahı:** ["Mahur" dəsgahı radioveriliş] / ifa ed.: Xan Şuşinski, verilişin müəllifi Firudin Şuşinski. – 23.07.85. – 17:00. – Arxiv № 7481.





**88. Sudan gələn sürməli qız:** [Azərbaycan muğamı "Segah" və ifaçı İslam Abdullayev haqqında radioveriliş] / ifa ed.: Xan Şuşinski, müş. ed.: Xalq Çalğı Alətləri üçlüyü, verilişin müəllifi: Firudin Şuşinski. – 1985. – 02:40. – Arxiv № 7575.

**89. Zabul muğamı:** ["Səməd Vurğun və musiqi" radioveriliş] /söz.: Səməd Vurğun, ifa ed.: Xan Şuşinski. – 11.11.85. – 02:40. – Arxiv № 7610.

**90. Xalq artisti Xan Şuşinskiyə həsr olunmuş konsert oçerk:** [radioveriliş] / iştirak edirlər: Bəhram Mənsurov, Şövkət Ələkbərova. – 04.09.76. – 25:00 Arxiv № 7630.

**91. Xan Şuşinskinin yaradıcılığına həsr edilmiş gecə:** [radioveriliş] / iştirak edirlər: Xan Şuşinski, Bəhram Mənsurov. – 29.03.75; 16.01.86. – 04:00. – Arxiv № 7647.

**92. Mahur hindi:** [Xan Şuşinskinin 70 illiyinə həsr olunmuş veriliş] / ifa ed.: Xan Şuşinski, tarda: Bəhram Mənsurov. – 25.12.71. – 14:00. – Arxiv № 7666.

**93. Şur:** ["Üzeyir Hacıbəyov və ifaçılıq sənəti" konsert oçerk, bəstəkar öz operalarında muğamdan istifadə etməsindən danışır (I veriliş)] / ifa ed.: Xan Şuşinski. – 03.02.86. – 10:54. – Arxiv № 7823.

**94. Ay qız kimin qızısan:** ["Üzeyir Hacıbəyov və ifaçılıq sənəti" (II veriliş)] /söz.: Məmməd Rahim, ifa ed.: Xan Şuşinski. – 10.03.86. – 01:48. – Arxiv № 7869.

**95. Qarabağ şikəstəsi:** ["Səməd Vurğun və musiqi" radioverilişi: "Qarabağ şikəstəsi"ndə Səməd Vurğunun "Azərbaycan şeirindən istifadə etməsi və hər iki sənətkarın dostluğundan (I veriliş)] / ifa ed.: Xan Şuşinski. – 23.03.86. – 05:30. – Arxiv № 7932.

**96. Qara tellər:** ["Xalq yaradıcılığı xəzinəsindən" radioveriliş] / ifa ed.: Xan Şuşinski. – 29.08.86. – 05:10. – Arxiv № 8112.

**97. Apardı sellər Saranı:** ["Xalq yaradıcılığı xəzinəsindən" radioveriliş] / ifa ed.: Xan Şuşinski. – 18.09.86. – 03:00. – Arxiv № 8129.

**98. Heyratı, Segah (söz.: Səməd Vurğun), Şuşanın dağları, Qarabağ şikəstəsi:** [Səməd Vurğunun 80 illiyinə həsr olunmuş "İki nəğməkar - Xan və Səməd" musiqili radioveriliş] / ifa ed.: Xan Şuşinski, müş. ed.: Xalq Çalğı Alətləri ansamblı. – 18.11.86. – 45:40. – Arxiv № 8138.

**99. Yaxan düymələ, Ay gözəl ceyran, Bəstənigar təsnifi, Dedim bir busə ver** / ifa ed.: Xan Şuşinski. – 09.04.68. – 11:05. – Arxiv № 8225.

**100.Şahnaz:** ["İfaçılıq sənəti" radioveriliş] / ifa ed.: Xan Şuşinski, müş.ed.: Xalq Çalğı Alətləri üçlüyü, aparıcı: Firudin Şuşinski. – 1987. – 03:30. – Arxiv № 8379.

**101.Heyratı, Sevgilim, Əlində sazı qurbanı:** [Moskvada keçirilmiş Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyünə həsr edilmiş konsert] / ifa ed.: Xan Şuşinski, müş.ed.: Xalq Çalğı Alətləri üçlüyü. – 24.05.59. – 06:45. – Arxiv № 9766.

**102.Qarabağ şikəstəsi, Ay qız kimin qızısan, Heyratı, Simayi-Şəms, Yaylıq:** [Xan Şuşinskinin doğum günü ilə əlaqədar "Axşam görüşləri" radioverilişi] / ifa ed.: Xan Şuşinski, Sara Qədimova. – 22.09.94. – 27:22. – Arxiv № 10809.

**103.Qara tellər, Ay qəşəng ceyran, Qarabağ şikəstəsi:** [Xan Şuşinskinin 70 illiyi ilə əlaqədar radioveriliş, verilişdə Əfrasiyab Bədəlbəyli yubliyar haqqında danışır] / ifa ed.: Xan Şuşinski, aparıcı: Rafael Hüseynov. – 27.10.94. – 60:00. – Arxiv № 10813.

**104.Heyratı:** ["Əlağa Vahidin musiqi dünyası" radioveriliş] / söz: Əlağa Vahid, ifa ed.: Xan Şuşinski. – 25.01.95. – 06:17. – Arxiv № 10869.

**105.Naz ilə baxma, Heyratı, Şuşanın dağları, Nə halətdir:** ["Bu dağlar ulu dağlar" Xan Şuşinskinin həyat və yaradıcılığına həsr olunmuş musiqili "Səs" radioverilişi] / ifa ed.: Xan Şuşinski. – 18.11.94. – 39:32. – Arxiv № 10915.





**106.Kürdü-Şahnaz:** [Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" kinofilmindən fraqment] / ifa ed.: Xan Şuşinski, tarda: Bəhram Mənsurov. – 15.03.72. – 02:00. – Arxiv №11606. II üzü.

**107."Muğam" radiojurnal:** [Səsyazma studiyalarının özfəaliyyəti, ansambla yad musiqi aləti daxil etməsi haqqında Xan Şuşinskinin fikirləri]. – 28.01.78. – Arxiv № 11609. I üzü.

### 1.3.Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi

**108.Azərbaycan muğam və mahnıları:** [Orta mahur, Bilmədin, Bağda sarmaşıq, Bəstənigar təsnifi, Ay qəşəng ceyran, Yaxan düymələ, Dedim bir busə ver / if.ed.: Xan Şuşinski. – Qramval.

**109.Xan Şuşinski:** (Azərbaycan diskoqrafiyası: 1915-1940)**:** [CD-ROM] / Bakı. – "Musiqi dünyası". – 2004. ***CD-****nin içindəkilər*: Qara qız (B-23428); Nar-nar (B-23429).

**110.Xan Şuşinski:** (Azərbaycan diskoqrafiyası: 1915-1940)**:** [CD-ROM] / Bakı. – "Musiqi dünyası". – 2004. ***CD-****nin içindəkilər*: Şur-I (B-13632); Şur-II (B-13633).

**111.Mahur;** Segah; Çoban bayatı; Xaric segah / if.ed.: Xan Şuşinski; tarda-Hacı Məmmədov. – Qramval.

**112.Mirzə – Hüseyn segahı I** / if.ed.: Xan Şuşinski; Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №13619

**113.Mirzə – Hüseyn segahı II** / if.ed.: Xan Şuşinski; Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №13620.

**114.Şur muğamı;** Şur Şahnaz; Şur; Maye şur / if.ed.: Xan Şuşinski. – Qramval.

**115.Şur təsnifi**; Maral; Etibar olar / if.ed.: Xan Şuşinski; İslam Rzayev. – Qramval. – II üz.

**116.Şur** / if.ed.: Xan Şuşinski; Xalq Çalğı Alətləri üçlüyü. – Qramval № B – 13632-13633.

## 1.4.Üzeyir Hacıbəylinin Ev-Muzeyi

**117.Ay gözəl** / if.ed. Xan Şuşinski; Şövkət Ələkbərova; Ə.Quliyevin idarə etdiyi ansambl. – Qramval № B - 21916

**118.Kürdü-Şahnaz** (ardı) / if.ed.: Xan Şuşinski, A.Cavanşirov-tar, N. Qriqoryan-kamanca. – Qramval №QOST – 5289 – 50, B – 23296.

**119.Kürdü-Şahnaz** / if.ed.: Xan Şuşinski, A.Cavanşirov-tar, N.Qriqoryan-kamanca. – Qramval № QOST–5289-50, B-23295.

**120.Rast – 1** / if.ed.: X.Şuşinski, söz. M.Füzuli; Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №QOST – 5289-50, B – 13610.

**121.Rast – 2** / if.ed.: X.Şuşinski, söz. Ə.Vahid; Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №QOST – 5289-50, B – 13611

**122.Rast (pəndcgah)** / if.ed.: Xan Şuşinski; söz. - S.Rüstəm. – Qramval №QOST – 5289 – 50, B – 13614.

**123.Rast (Şikəstəyi - fars) /** if.ed.: Xan Şuşinski; söz. - M.Rahim. – Qramval №QOST – 5289 – 50, B – 13612

**124.Rast (Üzzal)** /if.ed.: Xan Şuşinski; söz. – söz. - M.Rahim. – Qramval №QOST – 5289 – 50,B -13615.

**125.Şur (Mayə Şur)** / if.ed.: Xan Şuşinski; söz: Füzuli. – Qramval №QOST – 5289 – 50, B – 13630.

**126.Şur (Sarənc)** / if.ed.: X.Şuşinski; söz. M.Füzuli; Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №QOST – 5289-50, B –13635.

**127.Şur (Simayi-Şəms) /** if.ed.: Xan Şuşinski; Xalq Çalğı Alətləri üçlüyü. – Qramval №QOST – 5289-50, B – 13634.

**128.Şur (Şur - Şahnaz)** / if.ed.: Xan Şuşinski; söz: Səməd Vurğun. – Qramval №B – 13631.

**129.Şur, Maye şur** / if.ed.: Xan Şuşinski. – 1938. – Aprel zavodu. – Qramval №V-13630-B-1335





## 1.5.Bülbülün Xatirə Muzeyi

**130.Azərbaycan xalq mahnıları** / ifa.ed.: Xan Şuşinski; Allahyar-tar. – Qramval №I-1737. – Arxiv №1737.

**131.Bozardı çiçək, alma, Qarabağ şikəstəsi:** [xalq mahnıları] / if.ed.: Xan Şuşinski. – 1958. – Qramval №I-1784. – Arxiv № I-1784.

**132.Çahargah muğamı; Bəstə-Nigar; Bayatı; Mənsuriyyə** / if.ed.: Xan Şuşinski. – Qramval №I-1797. – Arxiv № I-1797.

**133.Nə halətdir, Gül açdı, Bahar oldu** / ifa.ed.: Xan Şuşinski. – Qramval №I-1789. – Arxiv №1789.

## 1.6.Xan Şuşinskinin bəstələdiyi və ifa etdiyi musiqilər

### 2001

**134.Şuşanın dağları; Qəmərim**; **Ay qəşəng Ceyran**: [mahnılar] / mus. və söz. Xan Şuşinski // Şuşa nəğmələri: iki cilddə: I cild. – Bakı, 2001. – S.84-85.

**135.Şuşanın dağları:** [mahnı] / mus. və söz. Xan Şuşinski // Min bir mahnı: II nəşr / Rafiq Babayev. – Bakı, 2001. – S. 363.

### 2005

**136.Ay gözəl:** [xalq mahnısı, notlar] / mus. Xan Şuşinski // Azərbaycan xalq mahnıları / tərt. ed. Səyavuş Kərimi. – Bakı, 2005. – S.96-97.

**137.Ay qara qız:** [xalq mahnısı, notlar] / mus. Xan Şuşinski // Azərbaycan xalq mahnıları / tərt. ed.: Səyavuş Kərimi. – Bakı, 2005. – S.119-120.

**138.Dilbərim:** [xalq mahnısı, notlar] / mus.: Xan Şuşinski // Azərbaycan xalq mahnıları / tərt. ed.: Səyavuş Kərimi. – Bakı, 2005. – S.141-142.

**139.Şuşanın dağları:** [xalq mahnısı, notlar] / mus.:Xan Şuşinski // Azərbaycan xalq mahnıları / tərt. ed.: Səyavuş Kərimi. – Bakı, 2005. – S.126-127.

**2007**

**140.Şuşanın dağları:** [mahnı] / mus. və söz. Xan Şuşinski // Min bir mahnı: IV nəşr / Rafiq Babayev. – Bakı, 2007. – S. 497.

**2010**

**141.Ay gözəl /** mus.: Xan Şuşinski; söz.: Məmməd Rahim // Min bir mahnı / Rafiq Xan-Sayadoğlu. – Bakı. – 2010. – V nəşr. – S.24.

**142.Şuşanın dağları: /** mus. və söz.: Xan Şuşinski // Min bir mahnı / Rafiq Xan-Sayadoğlu. – Bakı. – 2010. – V nəşr. – S.281.

## 1.7.Dövri mətbuatda və məcmuələrdə çap olunan məqalələri

**1959**

**143.Daha da həvəslə**: [Moskvada keçirilmiş Azərbaycan ədəbiyyatı ongünlüyündə təltif olunmuş mədəniyyət xadimləri haqqında] / Xan Şuşinski // Ədəbiyyat. – 1959. – 13 iyun. – S.4.

**1965**

**144.Mən onda bildim ki:** [Seyid Şuşinskinin vəfatı ilə əlaqədar müəllifin xatirələri] / Xan Şuşinski // Ədəbiyyat və incəsənət. – 1965. – 13 noyabr. – S.4.

**1970**

**145.Ürək yanmasa, gözdən yaş çıxmaz** / Xan Şuşinski // Ədəbiyyat və incəsənət. – 1970. – 9 may. – S.13.





**1974**

**146.İstedad axtarmaq da xeyirxahlıqdır:** [Xanəndənin "İstedad axtarırıq" başlığı ilə keçirilən konsert-müsabiqədə iştirak edən gənc ifaçılar barədə təəssüratı] / Xan Şuşinski // Ədəbiyyat və incəsənət. – 1974. – 23 fevral. – S. 14-15.

**147.Yüksək sənətkarlıq uğrunda:** [Bir daha ifaçılıq haqqında] / Xan Şuşinski // Ədəbiyyat və incəsənət. – 1974. – 3 avqust. – S.13.

**1975**

**148.Nəğmələr susmur**: [Cəbhədə verilən konsert haqqında] / Xan Şuşinski // Kommunist. – 1975. – 1 may. – S.3.

**1976**

**149.Yaxşı adamın hekayəti**: [Xalq şairi S. Vurğun haqqında] / Xan Şuşinski // Azərbaycan gəncləri. – 1976. – 20 noyabr. – S.4

**1977**

**150. Zirvə sabitliyi**: [Müsahibimiz respublikanın Xalq artisti Xan Şuşinski] / Xan Şuşinski; müsahibəni apardı: T. Əliyeva // Ədəbiyyat və incəsənət. – 1977. – 21 may.– S.4.

**1979**

**151.Səs, söz və ifaçılıq**: [Vəli Məmmədov, Telman Əliyev və Qafar Namazəliyevin müğənni ilə söhbəti] / Xan Şuşinski // Ədəbiyyat və incəsənət. – 1979. – 23 mart. – S.5.

**1995**

**152.Denən Tiflisə gedirəm; İndi mən qəşş edirəm; Belə işlərlə qardaşım məşğul olur; Qoy Bakı Ağdama gəlsin; Allahın narodnısına sözün nədir?; Atan bijin biridir, ölməz:** [Xan Şuşinskinin başına gələn məzəli əhvalatlar xanəndənin öz dilindən] / Xan Şuşinski // Musiqişünasın düşüncələri / Firudin Şuşinski. – Bakı, 1995. – S.329-333.

**2002**

**153. Sənət çeşməsi**: [Səməd Vurğunla bağlı xatirələr] / Xan Şuşinski; müsahibəni götürdü Cavid Məmmədbəyli // Mədəni maarif. – 2002. – №11. – S.22.

**2011**

**154. Şuşa lətifələri:** Xan Şuşinskidən / Xan Şuşinski // Şuşa. – 2011. – 15 aprel. – S.8.

**155. Xan Şuşinskinin lətifələrindən** / Xan Şuşinski // Şuşa. – 2011. – 21 noyabr. – S.4; 6; 30 noyabr. – S.2.

**2015**

**156. Cabbar Qaryağdıoğlu**: [Xan Şuşinskinin ustadı haqqında xatirələrindən] / X. Şuşinski // Azərbaycanın musiqi xəzinəsi / Firudin Şuşinski. – Bakı. – 2015. – S.340-376.

**2018**

**157. Ustad sənətkarımız Canəli Əkbərov**: [Xan Şuşinskinin xanəndə haqqında dəyərli fikirləri] / Xan Şuşinski // Tarixin səs yaddaşı: Azərbaycan radiosu / Səadət Təhmirazqızı. – Bakı, 2018. – S.549.

**2019**

**158. Mən ölüm?- Sən öləsən!:** Bakıda daimi yaşayan bir şuşalı ilə yenicə gəlmiş bir şuşalının söhbəti: [Xan Şuşinski və Firudin Şuşinski arasında dialoq] / Xan Şuşinski, Firudin Şuşinski // Şuşa. – 2019. – 15 yanvar. – S.2.





# II HİSSƏ

## 2.Xan Şuşinskinin həyat və yaradıcılığı haqqında

### 2.1.Kitablar

**1971**

**159. Muxtaroğlu, V.** Havalansın xanın səsi / Vəli Muxtaroğlu; red. Ə. Qasımov. - Bakı: Azərnəşr. – 1971. – 103, [1] s.: portr., fotoşək.

***Kitabda*** yarım əsrdən artıq bir müddətdə muğam və mahnı ifacılığı meydanında nadir səsə malik istedadlı nəğməkar Xan Şuşinski haqqında xatirələr verilmişdir.

***Kitabın içindəkilər*:** Toy, Sənətin sirləri, Ağ günlər tərənnümçüsü, Bakı səfərləri, Mübariz ahənglər, Dostluq nəğmələri, Sarıbaba dağlarında, Səslə sözün vəhdəti, Qələm əhlinin sevimlisi, Havalansın xanın səsi.

**1989**

**160. Şuşinski, F.** Xan Şuşinski: [monoqrafiya] / Firudin Şuşinski; red. S.İsmayılova; ön söz. T.Quliyev.– Bakı: İşıq, 1989. – 99, [5] s.: portr., fotoşək.

Azərbaycan ifaçılıq sənətinin yorulmaz tədqiqatçısı, görkəmli xanəndələrimiz barədə bir sıra maraqlı əsərlərin müəllifi F. Şuşinskinin bu növbəti kitabı Azərbaycan SSR Xalq artisti, unudulmaz müğənnimiz Xan Şuşinski haqqındadır.

Təkcə Azərbaycanın deyil, bu dilin anlaşıldığı və sevildiyi bütün ölkələrin musiqisevərləri tərəfindən hörmətlə xatırlanan unudulmaz xanəndənin sənət taleyi, sözsüz ki, oxucular üçün maraqlıdır. Müəllifin XX əsrin 30-cu illərinin Şuşası ilə bağlı şəxsi bioqrafiyasından süzülən qeydləri, böyük şair Səməd

Vurğunla Xan Şuşinskinin İsa bulağından son görüşü kitabın ən oxunaqlı, səmimi və ilhamlı səhifələridir.

Kitabda çoxlu fotoşəkil verilib. Onların bəziləri ilk dəfə çap olunur.

**1995**

**161.Şuşinski, F.** Musiqişünasın düşüncələri / Firudin Şuşinski; red. T. Əhmədov. – Bakı: Gənclik, 1995. – 352 s.

***Kitabda*** öz kökləri ilə çox qədim zamana gedib çıxan Azərbaycanın musiqi mədəniyyətindən, Şuşa, Şamaxı, Gəncə, Bakı şəhərlərində mövcud olmuş məclislərdən, muğamdan, musiqiçi və xanəndələrdən söhbət açılır, görkəmli sənətkarların həyatından maraqlı məlumatlar verilir. Həmçinin kitabda Şuşa muğam məclislərinin əvəzedilməz xanəndəsi olan Xan Şuşinski haqqında çox geniş xatirələr öz əksini tapmışdır.

***Kitabın içindəkilər:*** Şərəfli iş (Elçin Əfəndiyev); Müəllifdən; Musiqi məclisləri; Şuşa məclisi; Şamaxı məclisi; Bakı məclisi; Gəncə məclisi; İlk şərq konsertləri; Şərq gecələri; Segah dəstgahı; Mahur dəstgahı; Poeziya və musiqi; Toylar; İlk qrammofon valları; İfaçılıq sənəti; Çalğı musiqimiz; Hanı çal-çağıran Qarabağ; Oxumaq üçün səs lazımdır; Böyük insan-gözəl sənətkar; Üzeyir Hacıbəyov və ifaçılıq sənəti; Hacıbəyov qardaşlarının truppası; Səməd Vurğun və musiqi; Təşəbbüs yaxşı şeydir, amma; "Şur", yoxsa Şor?!; Muğamla zarafat olmaz; Hazır kökə "xəstəsi"; Bir daha "Buxoroyi Şərif"in redaktoru haqqında; Aşıq sənəti; Vaqiflə Sayat Novanın deyişməsi; Qarın sabahını düşünərkən; İşi bilənə tapşırarlar; Sənət "mənəm-mənəm"i sevmir; Azərbaycan musiqiçilərinin məzəli əhvalatları; Karvan gedir; Yaxşı dostdan doymaq olmaz.

**2001**

**162. Çəmənli, M.** Muğam dünyasının Xanı: Xatirələr / Mustafa Çəmənli; red. G.Ələkbərqızı. – Bakı: Gənclik, 2001. – 272 s.: portr., fotoşək.





***Kitab*** görkəmli xanəndə Xan Şuşinskinin 100 illik yubileyinə həsr olunur.

***Kitabın içindəkilər*: *Mustafa Çəmənli*.** Xan Şuşinski xatirələrdə; Şur dərsi; Bir ekspedisiyanın tarixi (Bülbülün xatirələrindən); Havalansın xanın səsi (Əfrasiyab Bədəlbəyli); Qeybdən gələn səs (Sara Qədimova ilə söhbət); Dəryanəfəs (Vəli Məmmədovla söhbət); Öz böyüklüyünü yaşayan insan (Vasif Adıgözəlovla söhbət); Adına layiq (Gülxar Həsənovayla söhbət); Bülbülü budaqdan endirən sənətkar (Sərvər İbrahimovla söhbət); Muğamatın Xanı (Arif Babayevlə söhbət); İstərdim Xan mənə söysün, amma oxuya-oxuya (Habil Əliyevlə söhbət); O, tarixi şəxsiyyətdi (Vaqif Səmədoğlu ilə söhbət); Əbədiyyətə qovuşmuş sənətkar (Ramiz Quliyevlə söhbət); Sehirli səs (Rəhilə Həsənova ilə söhbət); Xanəndələrimizin peyğəmbəri (Əlibaba Məmmədovla söhbət); Onu istəməyən yoxdu (Elmira Rəhimovayla söhbət); Allahın səs payı (Yaqub Məmmədovla söhbət); Əlçatmaz Zirvə (Canəli Əkbərovla söhbət); Xalqın istəkli xanəndəsi (Azər Rzayevlə söhbət); Bizim ailəmiz (Bəyimxanım Cavanşirova-Verdiyevanın xatirəsi); Bülbül deyirdi ki (Adilə Məmmədova ilə söhbət); Biz Xana pərəstiş edirdik (İslam Rzayevlə söhbət); Xan şikəstə oxuyanda (Şahlar Əliyevlə söhbət); Son söz Xanın "Heyratı"sı oldu (Qaraxan Behbudovla söhbət); İlahinin vergisi (Firudin Ələkbərovla söhbət), Xan ruhu (Saleh bəylə söhbət); Özü də səsi kimi əzəmətli idi (Fikrət Verdiyevlə söhbət); Valehedici səs (Sahib Şükürovla söhbət); Səsin Koroğlusu (Sabir Mirzəyevlə söhbət); Mənim Xan əmim milyonların sevimlisiydi (Fəxrəddin Cavanşirovla söhbət); Sənətin padşahı (Tələt Qasımovla söhbət); O bütün şərqin xanıydı (Süleyman Abdullayevlə söhbət); Həmişəyaşar sənət (Şahnəzər Hüseynovla söhbət); Xan xanəndə (Telman Əliyevlə söhbət); Kövrək xatirələr (Aslan Cavanşirovla söhbət); Son söz (Mustafa Çəmənli).

**2009**

**163. Səxavət, S.** Bəhanə: roman / Seyran Səxavət; red. E.İsgəndərzadə; cildin tərt. R.Cəlilli. – Bakı: Vektor, 2009. – 337 s.

***Kitab*** Azərbaycan muğamının, böyük xanəndələr Cabbar Qaryağdıoğlunun, Seyid Şuşinskinin və Xan Şuşinskinin xatirəsinə ithaf olunmuşdur.

Dədə Süleymanın həyat və yaradıcılığından bəhs edən bu sənədsiz roman, həm də, təxminən son yüz ilin muğam mənzərəsini oxucuların gözləri qarşısında büsbütün dirildir və canlandırır. Kitabda Azərbaycan musiqisinin görkəmli xanəndələrinin, Xan Şuşinskinin, Cabbar Qaryağdıoğlunun, Seyid Şuşinskinin həyat və yaradıcılığı, müəlliflə birgə xatirələri qələmə alınmışdır.

**2016**

